

Milli azadlıqdan şirin nemət yoxdur!

İ. Ə.

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

21 fevral 2026-cı il, şənbə
№ 034 (7101)
Qiyməti 60 qəpik


# Azərbaycanın qlobal liderliyi




## Ölkəmiz “Sülh Şurası”na yaradıcı (founding) üzv statusu ilə qoşulub

Bax səh. 4

## Yeni dünya nizamına transformasiya: Azərbaycan hazırlıqlı və perspektivli aktor kimi

Bax səh. 4



## Qətiyyətlə rədd edirik!

Azərbaycan səfirliyi bəyanat yayıb

Bax səh. 4

## Şarm əl-Şeyxdən başlanan təşəbbüs...

“Sülh Şurası”nın geosiyasi missiyası və perspektivi...

Bax səh. 3




## Dil siyasəti yeni mərhələdə

Bax səh. 4

Milli Məclisin iclasında...

### Deputatlar 10 məsələni müzakirə ediblər

Bax səh. 4

### İsveçrənin səfirinə məktub...

Milli QHT Forumu bu ölkəni ədalətli olmağa çağırır

Bax səh. 4

### Beynəlxalq Valyuta Fondunun yeni qlobal hesabatı

Bax səh. 6

### Azərbaycan və Türkiyə yeni fəaliyyət planı hazırlayır

Bax səh. 6

### Hər aydan bir gün alan Boz ay...

Bax səh. 7

## Hərb, ya sülh?




## Yaxın Şərqdə güc siyasəti

Bax səh. 7

# Azərbaycanın qlobal liderliyi

## Ölkəmiz "Sülh Şurası"na yaradıcı (founding) üzv statusu ilə qoşulub

Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan "Sülh Şurası" beynəlxalq birliyin diqqət mərkəzindədir ki, bu da təsadüfi deyil. Hazırda dünya olduqca həssas dönəmdən keçir, sürətli transformasiyalar baş verir. Narahatlıq doğuran ən mühüm məqamlardan biri isə dünyada müharibə risklərinin artması ilə bağlıdır. Ayrı-ayrı güc mərkəzləri tərəfindən hətta nüvə təhdidləri də vaxtaşırı gündəmə gətirilir.

Belə, heç də adi olmayan bir şəraitdə Donald Trampın ideya müəllifliyi və bilavasitə rəhbərliyi ilə "Sülh Şurası"nın yaradılması bəşəriyyəti xilas etmək, Qəzzada və digər ünvanlarda dağıntıları bərpa etmək üçün ümid işığı kimi görünür.

Azərbaycanın da bu qurumda təmsil olunması xüsusi məna daşıyır. Xatırladaq ki, Davos Dünya İqtisadi Forumu çərçivəsində "Sülh Şurası"na qoşulmaqla bağlı dövlətlərə açıq müraciət edilib. Bu müraciət fonunda Azərbaycan Respublikası "Sülh Şurası"na yaradıcı (founding) üzv statusu ilə qoşulub.

## Azərbaycanın və onun Liderinin beynəlxalq münasibətlər sistemində artan siyasi çəkisi

Elə ölkələr var ki, onların ayrı-ayrı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri formal səciyyə daşıyır. Bu qəbildən olan dövlətlər beynəlxalq əməkdaşlıqda bir qayda olaraq öz maraqlarını önə çəkirlər və daim umacaqlarını dilə gətirirlər, elə hey yardım, kömək istəyirlər. Ləyaqətli və güclü dövlət olan Azərbaycan isə belə davranışları heç vaxt özünə rəva görmür. Azərbaycanın multiregional səciyyə daşıyan xarici siyasəti sırf milli maraqlara, müstəqillik və suverenlik prinsiplərinə və əlbəttə ki, beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın verdiyi qərarlar hansısa uzaq paytaxtlarda deyil, Bakıda, dövlətimizin başçısı tərfindən imzalanır. Ölkəmizin xarici siyasətində indiki narahat dünyada yaranan çağırışlar mütləq qaydada nəzərə alınır. Təkcə son vaxtlarda, o cümlədən də yeni növ koronovirus pandemiyası dönəmində Prezident İlham Əliyev bir neçə dəfə beynəlxalq həmrəyliyin gücləndirilməsinə hesablanan təşəbbüslərlə çıxış edib və bu təşəbbüslər ayrı-ayrı dövlətlər, o cümlədən də BMT tərəfindən dəstəklənib. Həm də məsuliyyətli dövlət olan Azərbaycan yalnız təşəbbüslər irəli sürməklə kifayətlənmir, eyni zamanda, praktiki müstəvidə humanitar aksiyalarda yüksək fəallıq göstərir, ehtiyacı olanlara kömək edir. Respublikamızın BMT TŞ-də təmsilçiliyi, Qoşulmama Hərəkatında (QH) sədrliyi həmin təşkilatların tarixində məhsuldar dövr kimi xatırlanır. Azərbaycan qlobal pandemiya dönəmində Ümumdünya Səhiyyə Təşkilatına (ÜST), ehtiyacı olan dövlətlərə böyük həcmlərdə maliyyə yardımı göstərdi, ayrı-ayrı ölkələrin vaksinlərə çıxışını təmin ettdi. Son dörd ildə isə Azərbaycandan Ukraynaya bir neçə dəfə humanitar yardım yola salınıb. Respublikamız həmçinin keçid dövrünü yaşayan Suriyaya ilk yardım əli uzadan dövlətlər sırasında yer alır.

Azərbaycan həmçinin Qəzza məsələsində həssas yanaşma sərgiləyir. Ölkəmizin birmənalı mövqeyi ondan ibarətdir ki, münaqişə iki dövlət prinsipi əsasında həllini tapmalıdır. Yeri gəlmişkən, Azərbaycan indiyədək Fələstin dövlətinə də bir neçə dəfə humanitar yardım göndərib.

Azərbaycanın beynəlxalq əməkdaşlıqda fəallıq göstərməsi, qlobal həmrəyliyin möhkəmlənməsinə davamlı töhfələr verməsi öz növbəsində beynəlxalq birlik tərəfindən yüksək dəyərləndirilir. Bu gün respublikamız beynəlxalq miqyasda etibarlı tərəfdaş, müxtəlif mədəniyyətləri "Bakı prosesi" və digər təşəbbüslər çərçivəsində bir araya gətirən dialoq məkanı kimi tanınır. Respublikamıza və onun Liderinə dünyada artan rəğbət bunun əyani təsdiqidir. Ölkəmizin yuxarıda bəhs etdiyimiz statusda "Sülh Şurası"na qoşulması bunun növbəti ifadəsidir. "Sülh Şurası" çərçivəsində respublikamıza böyük önəm verilməsi Azərbaycanın beynəlxalq müstəvidə fəal siyasət yürütməsi, ölkənin inkişaf modeli, strateji sabitliyi və çoxtərəfli diplomatiyaya verdiyi töhfələrlə birbaşa bağlıdır. Beynəlxalq problemlərin qarşısının alınmasında və idarə olunmasında oynadığı rol, konstruktiv yanaşması, dialoq və nəticəyönümlü diplomatiya həyata keçirməsi ölkəmizin beynəlxalq səviyyədə yüksək nüfuz qazanmasını şərtləndirən amillərdir. "Sülh Şurası"nda Azərbaycanın iştirakı ölkəmizin mövbəti uğurudur. Bu, o anlama gəlir ki, dünyada ən həssas məqamlarda nəzərlər Azərbaycana dikilir və ölkəmiz də ona bəslənilən ümidləri hər zaman yüksək səviyyədə doğruldur.












## Prezident İlham Əliyev sülh gündəliyinin təşəbbüskarı və ən fəal təşviqatçılarındandır

Xüssusi olaraq vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Tramp tərəfindən Vaşinqtonda keçirilən "Sülh Şurası"nın ilk iclasında iştirak etmək üçün dəvət edilib. Bu, Prezident İlham Əliyevin dünyada böyük nüfuzu və ona olan hörmətin təzahürüdür. Bunu tədbir zamanı Prezident Trampın bir neçə dəfə Azərbaycanın dövlət başçısına xitab etməsi bir daha təsdiqlədi. Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyanın tədbir çərçivəsində görüşməsi və əlsıxmanın Prezident Tramp tərəfindən qeyd edilməsi qlobal sülhün və təhlükəsizliyin təmin olunmasında Azərbaycanın və dövlət başçımızın rolunun göstəricisidir. İclasda Azərbaycan və Ermənistan liderlərinin əlsıxması böyük rəmzi məna daşıyır. Bu, həm də onun nümayişidir ki, "Sülh Şurası"nın fəlsəfəsi qarşıdurmanı inkar edir, ölkələri barışığa çağırır. Azərbaycan və Ermənistan otuz ildən çox bir müddətdə müharibə şəraitində yaşayıblar. Bu illərdə Azərbaycan ərazilərinin təxminən 20 faizi işğal altına düşüb, bir milyondan artıq insan doğma ev-eşiyini tərk etmək məcburiyyətində qalıb. Müharibə illərində ölkəmizin təxminən 11 min kvadratkilometr ərazisində bütün yaşayış məntəqələri vəhşicəsinə dağıdılıb, mədəni irs yox edilib, təbii sərvətlər talanıb. Azərbaycan bu ədalətsizliyə öz gücü ilə son qoyaraq ərazi bütövlüyünü və suverenliyini tam təmin etməyə nail olub.

Təbii ki, iki qonşu ölkə əbədi olaraq düşmənçilik edə bilməz. Prezident İlham Əliyev sülh gündəliyinin təşəbbüskarı və ən fəal təşviqatçılarındandır. Müharibə başa çatdıqdan sonra qalib Azərbaycan yaratdığı yeni reallıqları regionda sülhə nail olmaq üçün real zəmin kimi dəyərləndirdi və bu istiqamətdə vaxt itirmədən məqsədyönlü fəaliyyətlərə başladı. Məhz İlham Əliyevin siyasi qətiyyəti və fəal diplomatiyası sayəsində sülhyaratma prosesində böyük yol keçilib. Bu yolda ötən il avustun 8-də Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində Azərbaycan, Ermənistan liderlərinin iştirakı və Donald Trampın şahidliyi ilə mühüm razılaşmaların əldə olunması, yekun sülh sazişinin xarici işlər nazirləri tərəfindən paraflanması böyük nailiyyətdir. Vaşinqton görüşündən sonra regionda real olaraq sülh mövcuddur, atəş səsləri eşidilmir, insanlar həyatlarını itirmirlər. Eyni zamanda, Azərbaycan sülhə töhfə vermək naminə öz ərazisindən Ermənistana tranzit keçidlərini təmin edir. Eləcə də ölkəmizdən Ermənistana enerji məhsullarının ilk partiyaları yola salınıb. Bundan başqa, son aylarda etimad quruculuğu prosesi çərçivəsində hər iki ölkənin vətəndaş cəmiyyəti təsisatlarının nümayəndələri İrəvanda və Bakıda bir neçə dəfə görüşüblər. Prezident İlham Əliyevin bildirdiyi kimi, Ermənistan konstitusiyasına müvafiq dəyişiklik edildikdən sonra yekun sülh sazişinin imzalanmasında hər hansı bir maneə qalmayacaq.

Eyni zamanda, Azərbaycanın məqsədyönlü siyasəti yalnız Cənubi Qafqaz coğrafiyasında deyil, bütün dünyada sülhün bərqərar edilməsinə yönəlib. Ölkəmizin bu siyasəti D.Trampın sülh çağırışları ilə üst-üstə düşür. Məlum olduğu kimi, Yaxın Şərqdə sülh prosesinin əsası ötən il oktyabrın 13-də Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Sülh Sammitində qoyulub. Azərbaycan Prezidentinin də dəvət aldığı həmin sammitdə Donald Trampın təşəbbüsü və siyasi iradəsi, həmçinin beynəlxalq birliyin dəstəyi sayəsində sülh razılaşmasının imzalanması Qəzza bölgəsi və bütün Yaxın Şərq coğrafiyası üçün yeni bir tarixin başlanğıcı kimi dəyərləndirilir. Yaxın Şərq Sülh Sammitində müvafiq razılaşmanı Misir Prezidenti Əbdülfəttah əs-Sisi, Qətər əmiri Şeyx Təmim bin Həməd əl Tani, ABŞ Prezidenti Donald Tramp və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar. Beləliklə də, Donald Trampın irəli sürdüyü 20 bəndlik sülh panı işə düşüb. Ötən dövrdə atəşkəs kiçik istisnalarla pozulsa da, bunlar böyük müharibə miqyasına keçməyib. Şarm əl-Şeyxdə, Davosda və Vaşinqtonda keçirilən bütün görüşlərində Azərbaycan Prezidenti İlham Əliyev Yaxın Şərqdə başlanan sülh prosesinə qətiyyətli siyasi dəstəyini ifadə edib.

## Qəzzada bərpa-quruculuq işlərinin və humanitar missiyaların həyata keçirilməsi

Tədbirin gündəliyində duran əsas məsələlərdən biri Qəzza ilə bağlı xüsusi maliyyə fondunun yaradılması, eləcə də bərpa-quruculuq işlərinin və humanitar missiyaların həyata keçirilməsi idi. Qəzzada 7 oktyabr 2023-cü il tarixində HƏMAS-la İsrail arasında başlayan qanlı savaş Yaxın Şərq və bütövlükdə dünya üçün böyük fəlakət idi. İki il ərzində regionda insanlıq faciəsi yaşanıb. Qəzzada 60 mindən çox insan həyatını itirib. Humanitar böhran son həddə çatıb. Göz önündə xarabazarlığa çevrilmiş ərazilər uzanır. Uşaqlar, böyüklər ac-yalavac vəziyyətdədirlər, onlar ən zəruri səhiyyə xidmətlərindən məhrum qalıblar, daldalanmağa yerləri yoxdur.

Bir sözlə, yerlə-yeksan edilmiş Qəzzanın bərpasını sıfırdan həyata keçirmək lazım gələcək. Zəruri infrastruktur qurulmalı, yaşayış evləri tikilməli, iş yerləri yaradılmalıdır. Bunun üçün isə böyük həcmlərdə maliyyə vəsaiti tələb olunur. Bunu elə Yaxın Şərq Sülh Sammitində Donald Trampın özü bildirib. "Qəzzaya çoxlu pul gələcək və çoxsaylı yenidənqurma və tikinti işləri aparacağıq", - deyə ABŞ Prezidenti yekun bəyanatında bildirib. O vurğulayıb ki, bu yenidən qurmaq deyil, əsl quruculuq olacaq.

Qəzza zolağının yenidən qurulması 70 milyard dollar xərc tələb edəcək. Bu barədə BMT-nin İnkişaf Proqramının (BMTİP) Fələstin xalqına yardım proqramı üzrə administratorunun xüsusi nümayəndəsi Yako Silliers bildirib. "BMT, Avropa İttifaqı və Dünya Bankı tərəfindən birgə aparılan zərərin və ehtiyacların operativ qiymətləndirilməsinə əsasən, Qəzzanın bərpası üçün təxminən 70 milyard dollar tələb olunacaq", - deyə o, Cenevrədə keçirilən brifinqdə vurğulayıb.

Eyni zamanda, Qəzzanın bərpası ilə bağlı "Ərəb planı" adlandırılan layihə də mövcuddur. Bu plan bir neçə ay bundan əvvəl Ərəb Dövlətləri Liqasının sammitində elan olunub. Ərəb liderləri Qəzza zolağının bərpası və gələcəkdə Fələstin Administrasiyasının (FA) bölgəyə nəzarətini təmin etmək üçün 53 milyard dollar (42 milyard funt sterlinq) dəyərində planı təsdiqləyiblər.

Daha bir mühüm məqam Qəzzada Sabitləşdirmə Qüvvələrinin yaradılması ilə bağlıdır. Bu ideya ilk dəfə Şarm əl-Şeyxdə ABŞ Prezidenti tərəfindən irəli sürülüb və Qəzza probleminin hərtərəfli həllinə yönəlmiş 20 maddəlik planın tərkib hissəsi kimi təqdim edilib.

Bəs, Azərbaycan Qəzzada Sabitləşdirmə Qüvvələrinin yaradılmasında iştirak edə bilərmi? Prezident İlham Əliyev bu ilin 5 yanvar tarixində yerli mediaya verdiyi müsahibədə bu suala özünün aydın baxışını ifadə edib. Belə ki, dövlətimizin başçısı Azərbaycanın Qəzzada yaradılması nəzərdə tutulan Sabitləşdirmə Qüvvələrinin tərkibinə qoşulmaq niyyətində olmadığını bəyan edib.

Bu, tamamilə məntiqli yanaşmadır. Azərbaycan yeni müharibədən çıxmış ölkədir və hərbi kontingentin başqa bir münaqişə zonasına göndərilməsi məsələsi cəmiyyətdə müəyyən həssaslıq doğurur. Bu mövqe Azərbaycanın xarici siyasətində məsuliyyətli yanaşma, daxili ictimai rəyin nəzərə alınması və regional prioritetlərin qorunması prinsipinə əsaslanır.

## Azərbaycan Qəzzada Sabitləşdirmə Qüvvələrinin yaradılmasında iştirak etməyəcək

Azərbaycan Respublikası öz praktiki təcrübəsindən çıxış edərək Qəzzada həyata keçirilən humanitar missiyalarda və investisiya layihələrində investor kimi aktiv rol oynaya bilər. Ölkəmiz münaqişədən sonrakı mərhələdə bərpa-quruculuq sahəsində əldə etdiyi təcrübəni beynəlxalq platformalarda bölüşmək imkanına malikdir. Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən genişmiqyaslı layihələr nümunə kimi nəzərdən keçirilə bilər. Bu, həqiqətən unikal bir nümunədir. Müharibə başa çatandan sonra ermənilər bildirirdilər ki, Azərbaycanın işğaldan təmizlədiyi əraziləri bərpa etməyə gücü çatmayacaq və yaxud buna onilliklər tələb olunacaq. Ancaq qalib Azərbaycan bəhs olunan ərazilərdə bərpa-quruculuq işlərinə müharibə başa çatandan dərhal sonra başladı. Artıq Qarabağda həyat canlanır, yenidən qurulan şəhər və kəndlərə bir-birinin ardında köç karvanları yola salınır. Qəzzada da bu təcrübədən istifadə etmək mümkündür. Gələcəkdə burada kommersiya şərtləri və investisiya layihələri əsasında Azərbaycan tərəfindən yatırımlar həyata keçirilə bilər. Ancaq indiki şəraitdə qeyd olunan 7 milyard dollar çərçivəsində Azərbaycanın hər hansı iştirakı nəzərdə tutulmur.

*Mübariz ABDULLAYEV*

# Qətiyyətlə rədd edirik!

## Azərbaycan səfirliyi bəyanat yayıb

Azərbaycan Prezidenti İlham Əliyevin Sülh Şurasının ilk iclasında iştirak məqsədilə Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində fevralın 19-da bir qrup etirazçı Vaşinqton şəhərində yerləşən "Waldorf Astoria" mehmanxanasının qarşısında təxribatçı hərəkətlər törədib. Prezident korteji mehmanxana ərazisinə yaxınlaşarkən, etirazçılar mühafizə olunan əraziyə zorla daxil olmağa cəhd ediblər və Prezident avtomobilinə yönəlik hücum aktları həyata keçiriblər. Bu qrup, həmçinin Azərbaycan rəhbərliyinə qarşı nalayiq ifadələr işlədib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın ABŞ-dəki səfirliyinin yaydığı bəyanatda qeyd edilib.

Bəyanatda, həmçinin bildirilib: "Dövlət başçısının mühafizə edilən nəqliyyat vasitəsinin hərəkətinə maneçilik törədilməsinin və ya fiziki müdaxilə olunmasının ciddi təhlükəsizlik təhdidi yaratdığını nəzərə alan Prezidentin Təhlükəsizlik Xidmətinin dərhal müdaxilə etməkdən başqa seçimi qalmayıb. Təhlükəsizlik tədbirləri standart əməliyyat prosedurlarına uyğun olaraq, yalnız təhlükəsizlik və mühafizənin təmin edilməsinə yönəlib.

Bundan əlavə, ABŞ-nin Gizli Xidməti tərəfindən bəyan olunduğu kimi, mehmanxana ərazisi rəsmi təhlükəsizlik perimetrinə daxil olub.

Beləliklə, ölkənin liderinə və mühafizə olunan korteјə qarşı yönəlmiş hərəkətlərə cavab olaraq həyata keçirilmiş təhlükəsizlik tədbirlərinin yanlış təqdim edilməsi və ya əsaslandırılmamış iddialar yayılması cəhdlərini qətiyyətlə rədd edirik.

Azərbaycanın təhlükəsizlik əməkdaşları hər zaman ev sahibi ölkə ilə sıx koordinasiya şəraitində fəaliyyət göstərir".



Səfirlik xəbərləri yayarkən məsuliyyətli davranmağa və təsdiqlənməmiş iddialara əsaslanaraq nəticə çıxarmaqdan çəkinməyə çağırış edib.

# Şarm əl-Şeyxdən başlanan təşəbbüs...

## “Sülh Şurası”nın geosiyasi missiyası və perspektivi...

2025-ci ilin payızında “Sülh Şurası”nın əsasının qoyulması yeni dövrdə dünya iqtisadiyyatında və siyasətində müşahidə olunan struktur dəyişikliklərinin artıq qlobal xarakter aldığını göstərən mühüm hadisələrdən biri kimi qiymətləndirilir. İndki mürəkkəb geosiyasi şəraitdə “Sülh Şurası” konsepsiyasının formalaşdırılması təşəbbüsü ötən il Şarm əl-Şeyx şəhərində keçirilmiş yüksək səviyyəli sammit çərçivəsində konkret siyasi müstəviyə daşınıb. Sammit çərçivəsində aparılan müzakirələr göstərdi ki, qlobal təhlükəsizlik arxitekturasının yenilənməsi artıq alternativ deyil, zərurətdir. Şarm əl-Şeyxdə əsası qoyulan bu mexanizm dövlətlər arasında birbaşa dialoqun, çevik qərarvermənin və humanitar reaksiyanın sürətləndirilməsini hədəfləyir. Bir çox siyasi ekspertlər bu qurumun siyasi fəlsəfəsinin regional və qlobal miqyasda baş verən böhranlara klassik diplomatik prosedurlardan daha çevik və praktik mexanizmlərlə cavab verilməsindən ibarət oldubu dünşüncəsindədirlər. Bu isə həm siyasi iradə, həm də kollektiv məsuliyyət tələb edir - beləliklə, “Sülh Şurası”nın konseptual əsaslarında dövlətlərin suverenliyinə hörmət, beynəlxalq hüquq normalarına sadiqlik və humanitar dəyərlərin qorunması prinsipləri ön planda tutulur.

Hazırkı mərhələdə bu təşəbbüs hələ formalaşma prosesində olsa da, artıq beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə düşüb. Onun gələcəkdə dünya nizamının aparıcı yönverici və istiqamətləndirici subyektlərindən birinə çevrilib-çevrilməyəcəyi isə siyasi iradənin davamlılığından və iştirakçı dövlətlərin birgə fəaliyyətindən asılı olacaq.

## Şarm əl-Şeyxə dəvət: Bakının artan beynəlxalq rolu diqqətlə izlənilir

Son illərdə Azərbaycanın qlobal arenada ard-arda qazandığı qələbələrə, nail olduğu beynəlxalq nüfuza və imicə nəzər saldıqda, mühüm ştrixlərlə qarşı-qarşıya dayanırıq. O baxımdan ki, qalib Azərbaycanın xarici siyasət fəlsəfəsi də dünyanın qlobal əhəmiyyətə malik prinsiplərini özündə birləşdirir:

- Bərabərhüquqlu münasibətlər;
- Beynəlxalq hüquqa hörmət və onun təmin edilməsi;
- Sülh, ədalət və qarşılıqlı hörmət prinsipləri.

Məhz bu dəyərlərə əsaslanan siyasət nəticəsində Azərbaycan son 20 ildə həm regional, həm də beynəlxalq səviyyədə tanınan, hörmət edilən və nüfuz qazanan dövlət statusu əldə edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu diplomatiya Azərbaycanın beynəlxalq nüfuzunu sistemli şəkildə artırıb. Bu isə nəticə etibarı ilə Bakının, artıq qlobal sülh gündəliyində yer almasını şərtləndirir. Şarm əl-Şeyx sammitinə Azərbaycan Prezidenti İlham Əliyevin şəxsən dəvət olunması da təsadüfi deyildi - vurğulandığı kimi, bu fakt təkcə diplomatik nəzakət nümunəsi deyil, həm də Azərbaycanın son illərdə beynəlxalq münasibətlər sistemində artan rolunun və etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir. Azərbaycan müxtəlif platformalarda sülh təşəbbüsləri ilə çıxış edərək həm regional, həm də qlobal miqyasda sabitliyə töhfə verməyə çalışıb.

Ölkəmizin əməkdaşlığa hədəflənmiş, sülhü və təhlükəsizliyi ön planda tutan xarici siyasət kursu, müxtəlif güc mərkəzləri arasında dialoqu təşviq etməsi və çoxtərəfli əməkdaşlığa verdiyi önəm bu dəvətin əsas səbəblərindən biri idi. Azərbaycan həm enerji təhlükəsizliyi, həm nəqliyyat-logistika layihələri, həm də humanitar təşəbbüslər sahəsində beynəlxalq əməkdaşlığa açıq mövqe sərgiləyir - “Sülh Şurası” kimi yeni qlobal mexanizmin formalaşması prosesində Azərbaycanın iştirakı da bu mənada, təbii və məntiqlidir. Prezident İlham Əliyevin sammitdə iştirakı Azərbaycanın qlobal təhlükəsizlik məsələlərinə münasibətdə aktiv mövqe tutduğunu bir daha nümayiş etdirdi. Bu iştirak ölkənin yalnız regional aktor deyil, həm də qlobal miqyasda fikir və təşəbbüs irəli sürən dövlət kimi çıxış etdiyini təsdiqlədi.

Paralel olaraq bu fakt Azərbaycanın beynəlxalq sülh təşəbbüslərində artan nüfuzunun göstəricisi idi. Dövlətimizin müxtəlif münaqişələrin həllində beynəlxalq hüquqa əsaslanan mövqeyi, humanitar məsələlərə həssas yanaşması və çoxtərəfli əməkdaşlığa açıq olması “Sülh Şurası”nın gələcək fəaliyyətində mühüm tərəfdaş kimi çıxış etməsinə imkan yaratdı.




## Ən mühüm nəticə - Qəzzada silahlar susub...

“Sülh Şurası” yarandığı qısa müddət ərzində bir sıra mühüm irəliləyişlərə nail olub. Bəlli olduğu kimi, şuranın əsas fəaliyyət sferası Qəzza probleminin həllidir - ilkin və ən diqqətçəkən nəticə kimi Qəzzada hərbi əməliyyatların dayandırılması istiqamətində atılan addımları göstərmək olar. Uzun müddət davam edən qarşıdurma nəticəsində yaranmış humanitar böhran beynəlxalq ictimaiyyətin ciddi narahatlığına səbəb olmuşdu. “Sülh Şurası” çərçivəsində aparılan danışıqlar və vasitəçilik səyləri nəticəsində atəşkəsə nail olunması qan tökülməsinin qarşısının alınmasında mühüm rol oynayıb.

Qəzza zolağında baş verən hadisələr təkcə regional deyil, qlobal təhlükəsizlik üçün də ciddi risklər yaradırdı. Humanitar böhranın dərinləşməsi, mülki əhalinin əziyyət çəkməsi və infrastrukturun dağıdılması beynəlxalq mexanizmlərin daha operativ fəaliyyət göstərməsini tələb edirdi. Bu baxımdan “Sülh Şurası”nın çevik qərarvermə modeli özünü praktik müstəvidə doğrultmağa başlayıb.

Humanitar sahədə mühüm addım kimi əsir və girovların qaytarılması prosesinin həyata keçirilməsi xüsusi qeyd olunmalıdır. Bu proses qarşılıqlı etimadın formalaşmasına və tərəflər arasında dialoqun bərpasına zəmin yaradıb. Münaqişə şəraitində humanitar məsələlərin prioritetləşdirilməsi yeni qurumun əsas prinsiplərindən biri kimi çıxış edir.

Bu nəticələr göstərir ki, “Sülh Şurası” yalnız siyasi bəyanatlar verməklə kifayətlənmir, real və ölçülə bilən nəticələr əldə etməyə çalışır. Əlbəttə, əldə olunan nailiyyətlərin davamlı olması üçün uzunmüddətli mexanizmlərin yaradılması və tərəflər arasında dayanıqlı razılaşmaların təmin edilməsi vacibdir. Lakin ilkin mərhələdə əldə olunan irəliləyişlər bu təşəbbüsün potensialını nümayiş etdirir.

## Beynəlxalq reaksiyalar: ehtiyatlı yanaşma və mümkün geosiyasi təsirlər...

“Sülh Şurası” təşəbbüsü beynəlxalq gündəmdə geniş rezonans doğurmaqla yanaşı, bəzi dövlətlər və siyasi qruplar tərəfindən ehtiyatla qarşılanır. Xüsusilə Avropa qrupu ölkələri və Çin tərəfindən bu təşəbbüsün mövcud beynəlxalq institutların roluna və qərarvermə balansına mümkün təsirləri ilə bağlı müəyyən narahatlıqlar ifadə olunur.

Əsas müzakirə mövzusu ondan ibarətdir ki, yeni qurum qlobal idarəetmə sistemində hansı yeri tutacaq. Əgər “Sülh Şurası” yalnız konkret regional böhranların idarə olunması ilə məhdudlaşarsa, bu halda o, mövcud institutlara əlavə dəstək mexanizmi kimi qəbul edilə bilər. Lakin əgər qurum daha geniş mandatla fəaliyyət göstərərək digər münaqişələrin həllində aparıcı rol oynamağa çalışarsa, bu, beynəlxalq sistemdə güc balansına təsir göstərə bilər.

Xüsusilə BMT-nin rolunun mümkün şəkildə zəifləməsi ilə bağlı ehtimallar bəzi dairələrdə narahatlıq formalaşdırır. Qlobal təhlükəsizlik məsələlərində universal platforma kimi çıxış edən BMT-nin legitimliyi və tarixi rolu nəzərə alındıqda, alternativ mexanizmin formalaşması ciddi geosiyasi diskussiyalara səbəb olur.

Bununla yanaşı, bəzi ekspertlər hesab edirlər ki, mövcud sistemin təkmilləşdirilməsi və alternativ mexanizmlərin yaradılması ziddiyyət təşkil etmir. Əksinə, düzgün koordinasiya və əməkdaşlıq şəraitində “Sülh Şurası” mövcud boşluqları doldura və qlobal təhlükəsizlik arxitekturasını daha funksional edə bilər.

Beləliklə, “Sülh Şurası” təşəbbüsü XXI əsrin mürəkkəb və çoxqütblü beynəlxalq münasibətlər sistemində yeni yanaşmanın təzahürü kimi qiymətləndirilə bilər. Təşəbbüsün gələcək taleyi beynəlxalq ictimaiyyətin ona münasibətindən, mövcud institutlarla münasibətlərin necə qurulacağından və əldə olunan nəticələrin davamlılığından asılı olacaq. Qurumun inklüzivlik, legitimlik və effektivlik prinsiplərinə sadiq qalacağına inam böyükdür - nəticə etibarı ilə də, “Sülh Şurası”nın qlobal təhlükəsizlik arxitekturasında mühüm rol oynayacağı şübhə doğurmur.

## Konsepsiyanın təsisatlandırılması...

Növbəti mərhələdə “Sülh Şurası” konsepsiyasının institusional əsaslarının formalaşdırılması istiqamətində işlərə başlanılıb. Bu təşəbbüsün irəli sürülməsində Amerika Birləşmiş Ştatları mühüm rol oynayıb. ABŞ tərəfindən irəli sürülmüş bu konsepsiya qlobal təhlükəsizlik sahəsində daha çevik və effektiv mexanizmin yaradılmasını hədəfləyir. Konsepsiyanın təsisatlandırılması bir neçə əsas istiqaməti əhatə edir. İlk növbədə, qərarvermə mexanizminin aydınlaşdırılması və üzv dövlətlərin səlahiyyət bölgüsünün müəyyənləşdirilməsi vacibdir. Eyni zamanda, maliyyə təminatı, katiblik strukturu və regional nümayəndəliklərin yaradılması kimi təşkilati məsələlər də gündəmdədir. Bu proses qurumun legitimliyinin və funksionallığının təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

ABŞ-ın təşəbbüsü ilə irəli sürülən bu model klassik beynəlxalq institutlardan fərqli olaraq daha çevik və situativ yanaşmanı əsas götürür. Məqsəd uzun prosedurlar və veto mexanizmləri səbəbindən qərarların gecikməsinin qarşısını almaqdır. Lakin bu yanaşma eyni zamanda müəyyən müzakirələrə də yol açır. Çünki qlobal təhlükəsizlik məsələlərində geniş konsensusun təmin olunması legitimlik baxımından vacib amildir.

Bu mərhələdə əsas məsələ “Sülh Şurası”nın mövcud beynəlxalq sistemə paralel struktur kimi formalaşması, yoxsa onunla koordinasiyalı fəaliyyət göstərməsi ilə bağlıdır. Təsisatlandırma prosesinin uğuru qurumun gələcək təsir imkanlarını müəyyən edəcək əsas faktor kimi çıxış edir.

P.İSMAYILOV

# Qlobal təhlükəsizlik üçün: “Sülh Şurası” modelinin yeni institusional perspektivləri

## Dəyişən dünya nizamında təhlükəsizlik islahatlarının zəruriliyi

XXI əsr dünyada informasiya və inkişaf əsri kimi xarakterizə olunsa da, yeni dövrdə siyasi qarşıdurmalar, geostrateji konfrantasiyalar daha da dərinləşir. Sirr deyil ki, beynəlxalq münasibətlər sistemi hazırda dərin və çoxşaxəli transformasiya mərhələsindən keçir. II Dünya müharibəsindən sonra formalaşan, “Soyuq müharibə”dən sonrakı dövrdə isə əsasən liberal beynəlxalq nizam prinsiplərinə əsaslanan qlobal idarəetmə mexanizmləri yeni geosiyasi reallıqlara adekvat cavab verməkdə çətinlik çəkir. Böyük güclər arasında artan siyasi-iqtisadi rəqabət, regional münaqişələrin kəskinləşməsi, beynəlxalq statuslu aktorların təsir imkanlarının genişlənməsi və beynəlxalq hüququn selektiv tətbiqi mövcud təhlükəsizlik arxitekturasının effektivliyini zəiflədib. Xüsusilə son illərdə müxtəlif qitələrdə baş verən silahlı toqquşmalar və humanitar böhranlar göstərir ki, beynəlxalq sistemdə kollektiv təhlükəsizlik mexanizmləri əvvəlki kimi işlək deyil.

Bu kontekstdə qlobal sülh və təhlükəsizliyin təmin olunmasına cavabdeh əsas institut olan Birləşmiş Millətlər Təşkilatı və onun əsas orqanı sayılan BMT Təhlükəsizlik Şurası mövcud münaqişələrin qarşısının alınması və ya aradan qaldırılması istiqamətində gözlənilən nəticələri əldə edə bilmir. Təhlükəsizlik Şurasında veto hüququnun siyasi alətə çevrilməsi, geosiyasi maraqların qərar qəbul etmə prosesinə dominant təsiri və qəbul olunan qətnamələrin icra mexanizmlərinin zəifliyi qurumun funksionallığını məhdudlaşdırır.

Belə şəraitdə beynəlxalq ictimaiyyət qarşısında duran əsas suallardan biri ondan ibarətdir ki, mövcud institutlar islahat yolu ilə gücləndirilməlidir, yoxsa alternativ mexanizmlərin yaradılması zəruridir? Dünyanın müxtəlif regionlarında davam edən müharibələr, humanitar fəlakətlər və dərinləşən siyasi qarşıdurmalar göstərir ki, yalnız mövcud mexanizmlərə güvənmək artıq kifayət deyil. Əksinə, daha çevik, siyasi iradəyə əsaslanan və nəticəyönümlü yeni platformaların yaradılması müasir dövrün çağırışlarına cavab verə bilər.

Məhz bu baxımdan “Sülh Şurası” kimi alternativ bir mexanizmin yaradılması ideyası aktuallıq qazanıb. Belə bir qurum klassik çərçivələrdən kənara çıxaraq, konkret münaqişələrin həlli üçün daha operativ qərarlar qəbul edə, vasitəçilik və sülh quruculuğu prosesində daha çevik rol oynaya bilər. Qlobal sistemin çoxqütblü xarakter aldığı bir dövrdə sülhün təmin olunması üçün yeni yanaşmaların tətbiqi qaçılmaz görünür.

## Mövcud münaqişələrə təsir və beynəlxalq mexanizmlərin effektivlik problemi

Hazırda dünyada 60-dan artıq aktiv münaqişə ocağının mövcudluğu beynəlxalq təhlükəsizlik sisteminin dərin böhran içində olduğunu göstərir. Bu münaqişələr təkcə regional xarakter daşımır, eyni zamanda qlobal güc balansına və beynəlxalq iqtisadi-siyasi münasibətlərə ciddi təsir göstərir. Xüsusilə Yaxın Şərqdə baş verən hadisələr, o cümlədən Qəzzada davam edən humanitar böhran və genişmiqyaslı hərbi əməliyyatlar beynəlxalq ictimaiyyətin təsirli müdaxilə mexanizmlərinə malik olmadığını nümayiş etdirir.

Eyni zamanda, 2022-ci ildən etibarən davam edən Rusiya-Ukrayna müharibəsi Avropa qitəsində təhlükəsizlik arxitekturasını kökündən dəyişdirib. Müharibənin uzanması, diplomatik təşəbbüslərin nəticəsiz qalması və tərəflər arasında kompromis imkanlarının məhdudluğu mövcud beynəlxalq vasitəçilik mexanizmlərinin effektiv olmadığını göstərir. Bu münaqişə yalnız iki dövlət arasında deyil, həm də böyük güclər arasında dolayı qarşıdurma xarakteri daşıyır və qlobal enerji, ərzaq və təhlükəsizlik bazarlarına təsir edir.

Qəzza problemi isə onilliklərdir davam edən və həllini tapmayan münaqişə kimi beynəlxalq təşkilatların, xüsusilə BMT-nin səmərəsizliyinin simvoluna çevrilib. Müxtəlif sülh təşəbbüsləri, atəşkəs razılaşmaları və beynəlxalq konfranslar uzunmüddətli nəticə verməyib.

Beləliklə, çoxsaylı münaqişələrin paralel şəkildə davam etməsi və hətta genişlənməsi beynəlxalq mexanizmlərin preventiv diplomatiya və effektiv vasitəçilik funksiyalarını yerinə yetirə bilmədiyini təsdiqləyir. Bu reallıq alternativ platformaların formalaşdırılmasını zəruri edir.




## “Sülh Şurası” alternativ mexanizm kimi...

Mövcud reallıqlar fonunda alternativ sülh mexanizmlərinin yaradılması ideyası müxtəlif siyasi dairələrdə müzakirə olunur. Xüsusilə, ABŞ-ın bəzi beynəlxalq strukturlardan uzaqlaşması və çoxtərəfli mexanizmlərə alternativ yanaşmalar irəli sürməsi yeni platformaların formalaşdırılması ideyasını gücləndirir. Vaşinqton UNESCO, BMT-nin İnsan Hüquqları Şurası və digər başqa BMT strukturlarından çıxmaqla yeni bir situasiya yaradıb. Belə bir mərhələdə “Sülh Şurası” təşəbbüsünün ortaya çıxması və fəal iş prinsipinin nümayişi göstərir ki, nəzərdə tutulan addımlar daha effektiv və təsiredici ola bilər. Əsas məqsəd kimi:

- Konkret münaqişələr üzrə siyasi dialoqun təşkili;
- Vasitəçilik və ya təşkilatçılıq mexanizmlərinin gücləndirilməsi;
- Operativ qərar qəbuletmə imkanlarının artırılması;
- Ortaq maraqlar üzərində konsorsiumun əldə olunması;
- Tərəflərin daha çox iqtisadi əlaqələrin gücləndirilməsi və geocoğrafi üstünlüklərin iqtisadi dividendlərə transfer olunmasına yönləndirilməsi nəzərdə tutulur.

Beləliklə, “Sülh Şurası” ənənəvi beynəlxalq təşkilatlardan fərqli olaraq, daha məhdud üzvlük və daha çevik prosedurlar əsasında fəaliyyət göstərə bilər. Bu isə qərarların daha sürətli qəbul olunmasına və tətbiqinə imkan verəcək - eyni zamanda, belə bir mexanizm regional güclərin və təsirli dövlətlərin iştirakı ilə formalaşdırılarsa, qəbul edilən qərarların icrası üçün real siyasi iradə təmin edilə bilər.

## Beynəlxalq təhlükəsizlik arxitekturasının yenidən dizaynı

Yaranan çətin situasiyanın ən əsas səbəblərindən biri müasir beynəlxalq münasibətlər sisteminin daha da çoxqütblü və qeyri-sabit xarakter daşıması ilə bağlıdır. Böyük güclər arasında iqtisadi-siyasi rəqabət dərinləşdikcə, regional münaqişələr ətrafında qruplaşma yarana bilir və bu da qlobal qarşıdurma riskini artırır. Bu şəraitdə beynəlxalq təhlükəsizlik arxitekturasının yenidən dizaynı zərurəti meydana çıxır. “Sülh Şurası” kimi mexanizm isə qlobal təhlükəsizlik sistemində yeni presedent yarada bilər - əgər belə bir platforma vasitəsilə, məsələn, Qəzzada dayanıqlı atəşkəs və siyasi razılaşma əldə olunarsa, bu model digər münaqişə zonalarına da tətbiq olunma ehtimalını ortaya qoyur. Əsas məsələ mexanizmin legitimliyinin, təmsilçilik prinsipinin və qərarların icra imkanlarının təmin edilməsidir.

Yeni təhlükəsizlik platforması həm dövlətlərarası münaqişələrin, həm də daxili silahlı qarşıdurmaların həllində vasitəçi rola malikdir. İkinci mərhələdə isə qurum humanitar böhranların aradan qaldırılması, qaçqın problemlərinin həlli və münaqişədən sonrakı bərpa prosesində koordinasiya funksiyanı da daşıya bilər. Beləliklə, beynəlxalq təhlükəsizlik arxitekturasının yenilənməsi təkcə institusional dəyişiklik deyil, həm də siyasi iradənin və məsuliyyət bölgüsünün yenidən müəyyənləşdirilməsidir. “Sülh Şurası” bu baxımdan innovativ və praqmatik yanaşma kimi qiymətləndirilə bilər.

## BMT-nin institusional məhdudiyyətləri və islahat zərurəti

Vurğulandığı kimi, qlobal təhlükəsizliyin qorunmasına cavabdeh olan Birləşmiş Millətlər Təşkilatı münaqişələrin qarşısının alınması və həlli sahəsində yetərli təsir imkanları nümayiş etdirə bilmir. Bunun əsas səbəblərindən biri Təhlükəsizlik Şurasında veto hüququnun mövcudluğudur. Beş daimi üzvün - ABŞ, Rusiya, Çin, Fransa və Böyük Britaniyanın veto səlahiyyəti bir çox hallarda siyasi konsensusun əldə olunmasına mane olur.

BMT-nin qərarlarının icrası mexanizmi də zəifdir. Məsələn, Ermənistan-Azərbaycan münaqişəsi dövründə qəbul edilmiş dörd qətnamənin 30 il ərzində icra olunmaması təşkilatın təsir imkanlarının məhdudluğunun açıq göstəricisidir. Qətnamələrin hüquqi qüvvəsi olsa da, onların icrası üçün effektiv sanksiya və məcburetmə alətləri praktikada tətbiq olunmur.

Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan tərəfindən səsləndirilən “Dünya 5-dən böyükdür” tezisi də məhz Təhlükəsizlik Şurasının mövcud strukturuna yönəlmiş tənqidi ifadə edir. Bu yanaşma qlobal idarəetmədə daha ədalətli təmsilçilik və qərar qəbuletmə mexanizmlərinin yenilənməsi ideyasını gündəmə gətirir.

Beləliklə, BMT-nin struktur və prosedur məhdudiyyətləri yeni çoxtərəfli platformaların yaradılmasını aktuallaşdırır. Əgər mövcud sistem islahatlara açıq deyilsə və ya islahatlar ləng gedirsə, alternativ mexanizmlər qlobal təhlükəsizliyin təmin olunmasında əlavə rol oynaya bilər.

## Qlobal sülh gündəliyində yeni səhifə...

Bütün bunlar onu göstərir ki, müasir beynəlxalq münasibətlər sistemi ciddi sınaq qarşısındadır. Münaqişələrin sayının artması, onların uzunmüddətli xarakter alması və humanitar nəticələrinin ağırlaşması mövcud qlobal idarəetmə mexanizmlərində dəyişikliyi zəruri edir. Səbəb isə ənənəvi qərarların qəbulundakı siyasi bloklanmalar və icra mexanizmlərinin zəifliyi, beynəlxalq ictimaiyyətin gözləntilərini doğrultmamasıdır. Bu reallıq fonunda alternativ mexanizmlərin yaradılması ideyası kimi “Sülh Şurası” təşəbbüsü qlobal təhlükəsizlik sistemində yeni nəfəs rolunu oynaya bilər. Belə bir platforma daha çevik qərar qəbuletmə prosedurları, siyasi iradəyə əsaslanan vasitəçilik mexanizmləri və konkret nəticələrə fokuslanmış fəaliyyət strategiyası ilə mövcud boşluqları doldura bilər. Nəticə etibarilə, dəyişən dünya nizamı yeni yanaşmalar tələb edir. Mövcud mexanizmlərin zəif tərəflərini nəzərə alaraq, daha çevik və inklüziv təhlükəsizlik platformalarının yaradılması beynəlxalq ictimaiyyət üçün strateji prioritetə çevrilməlidir. “Sülh Şurası” bu istiqamətdə atılan addımlardan biri kimi qlobal sülh gündəliyində mühüm yer tuta bilər.

*Pərviz SADAYOĞLU*

## Milli Məclisin iclasında...

# Deputatlar 10 məsələni müzakirə ediblər

Fevralın 20-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 10 məsələ daxil edilib. Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova fevralın 21-də dünya ölkələrində Beynəlxalq Ana Dili Gününün qeyd olunduğunu bildirib.

**Spiker: Azərbaycan dili dünyanın ən zəngin dillərindən biridir**

Onun sözlərinə görə, Azərbaycan dili dünyanın ən zəngin və gözəl dillərindən biridir. Bizim dilimiz əsrlər boyu xalqımızın milli mənlik şüurunun formalaşmasında və mədəni irsinin qorunmasında mühüm rol oynayıb. Spiker deyib ki, Prezident İlham Əliyev ana dilimizin qorunmasına və inkişafına böyük diqqət yetirir: “Ulu Öndərin bu sahədə başladığı strateji xətt ardıcıl davam etdirilir. Ötən ilin noyabr ayında dövlət başçısı Azərbaycan Milli Elmlər Akademiyasında çıxışında Azərbaycan dilinin təmizliyinin qorunmasının və düzgün istifadə edilməsinin vacibliyini qeyd edib. O deyib ki, “Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır”. S.Qafarovanın sözlərinə görə, dövlət başçısı tərəfindən bu istiqamətdə həyata keçirilən işlərə Milli Məclis də parlament səviyyəsində dəstək göstərməyə çalışır: “Xatırladım ki, ötən il dekabrın 8-də Milli Məclisdə Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyasına həsr edilən konfrans keçirilib. Qanunvericilik orqanı Azərbaycan dilinin inkişafı sahəsində irəli sürülən təşəbbüsləri bundan sonra da dəstəkləyəcək”.

Sonra millət vəkilləri cari məsələlərlə bağlı fikirlərini bildiriblər. Deputat Müşfiq Cəfərov deyib ki, dövlət idarəçiliyində əsas prinsip institutların sabitliyi və mexanizmlərin davamlı işləkliyidir. Rəhbər dəyişiklikləri də idarəetmənin təbii hissəsidir. Lakin millət vəkilinin fikrincə, rəhbər dəyişdikdə qurumda ciddi kadr dəyişikliyi dərhal baş verməməlidir: “Çox zaman müşahidə edirik ki, rəhbər dəyişdikdən sonra strukturda kütləvi kadr dəyişiklikləri baş verir - şöbə müdirləri, müavinlər və digər əməkdaşlar vəzifədən uzaqlaşdırılır. Halbuki əsas meyar şəxsi münasibətlər deyil, işin nəticəsi və peşəkarlıq göstəriciləri olmalıdır”.

## Vüqar Bayramov: Ölkəmiz regional “orta güc” dövlətinə çevrilib




Millət vəkili Vüqar Bayramov isə çıxışında bildirib ki, fevralın 19-da Azərbaycan Prezidentinin Vaşinqtonda Sülh Şurasının ilk iclasında iştirak etməsi və ABŞ Prezidenti tərəfindən ölkəmizlə bağlı deyilən xoş sözlər Azərbaycanın regional gücünü və geosiyasi mövqeyinin daha da gücləndiyini bir daha təsdiq edir. Onun sözlərinə görə, Sülh Şurası özündə dünyanın aparıcı iqtisadi gücünü də birləşdirir: “Bu, sadəcə həmin şurada ABŞ-ın təmsil olunması deyil, həmçinin qurumun genişlənməsi ilə bağlıdır. Alıcılıq qabiliyyəti indeksi nəzərə alınmaqla Sülh Şurasına üzv olan dövlətlərin birgə ÜDM-lərinin həcmi 54,4 trilyon dollardır. Bu, dünya iqtisadiyyatının üçdə biri deməkdir. Deməli, söhbət 50 trilyon dollardan artıq iqtisadiyyatı olan dövlətlərin iclasından gedir”.

V.Bayramovun fikrincə, Azərbaycanın yüksək səviyyəli iclasa dəvət olunması ölkəmizə olan xüsusi diqqətin göstəricisidir. Yeni dünya düzəninin formalaşması mərhələsində regionda müşahidə edilən siyasi katakalizmlərə rəğmən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirməklə yanaşı, ölkəmizi regional “orta güc” dövlətinə çevirib. “Çox vektorlu xarici siyasət Azərbaycanın Qərb və Şərqlə tərəfdaşlığını gücləndirərək regional təhlükəsizliyin qorunmasında rolunu daha da artırıb. Donald Trampın yenidən ABŞ Prezidenti seçilməsindən sonra Birləşmiş Ştatlar ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı müşahidə olunur. Qafqazda sülhə töhfə verməyə çalışan ABŞ ilə ikitərəfli əlaqələrimiz də inkişaf edir”,-deyə deputat vurğulayıb.

## Azər Badamov: Xalqımızın həmrəyliyini heç kim poza bilməz

Millət vəkili Azər Badamov isə çıxışında Vaşinqtonda kiçik bir qrupun təxribat cəhdindən bəhs edib. Onun fikrincə, Azərbaycan Prezidentinin siyasətinin regionda sülh reallıqlarını yaratması, dünyada nüfuz sahibi olması, Münhendə, Vaşinqtonda və digər beynəlxalq platformalarda hörmətlə qarşılanan və sözünün çəkisi olan Lider olması çoxlarını narahat edir. “Bəziləri həmin təxribatçıları radikal müxalifətin nümayəndələri də adlandırır. Hesab edirəm ki, bu təxribatları törədən ünsürlər heç vaxt müxalifət ola bilməz. Müxalifət mübarizəni siyasi meydanda aparar. Amma bu milli satqınlar şovinist erməni dairələrin və xarici xüsusi xidmət orqanların cızdıqları ssenarilərə uyğun şəkildə hərəkət edirlər. Onlar bilməlidirlər ki, xalqımızın milli birliyini və həmrəyliyini heç kim poza bilməz”,-deyə A.Badamov vurğulayıb.

Çıxış edənlərdən komitə sədrləri Şahin İsmayılov, Fazil Mustafa, Zahid Oruc, deputatlar Əli Məsimli, Aydın Mirzəzadə, Sahib Alıyev və Ceyhun Məmmədov da aktual mövzulardan bəhs ediblər.

## Konvensiya ratifikasiya olunub

Sonra iclasın gündəlyindəki məsələlər müzakirəyə çıxarılıb. Əvvəlcə, “Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası” ratifikasiya edilib. Bildirilib ki, 2015-ci il martın 25-də Santiaqo-de-Kompostela şəhərində imzalanmış “Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası” Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq olunub. Konvensiyanın məqsədi insan orqanlarının alverinin qarşısının alınması və onunla mübarizə aparılması, habelə qurbanların hüquqlarının müdafiəsi və tərəflər arasında milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsidir.

İclasda “Uşaq hüquqları haqqında”, “Kinematoqrafiya haqqında”, “Yol hərəkəti haqqında” və “Avtomobil yolları haqqında”, eləcə də “İnvestisiya fəaliyyəti haqqında” qanunlara dəyişikliklər ikinci oxunuşda qəbul olunub.

Eyni zamanda, gündəlikdə olan digər məsələlər müzakirə edilib.

*Nardar BAYRAMLI*

# Yeni dünya nizamına transformasiya: Azərbaycan hazırlıqlı və perspektivli aktor kimi




*Nurlan QƏLƏNDƏRLİ,*
*Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

Avrasiyanın önəmli bölgələrindən biri kimi son illərdə yüksələn geosiyasi dinamikaya malik Cənubi Qafqazda artıq yeni strateji era başlanıb. Öz ərazi bütövlüyü və mütləq suverenliyinə nail olan Azərbaycanın sülh diplomatiyası regional sabitlik, təhlükəsizlik və işbirliyinə istiqamətlənməklə yanaşı, aktual çağırışlar, xüsusilə də beynəlxalq təhlükəsizlik məsələləri fonunda olduqca mühüm əhəmiyyət kəsb edir.

**Geosiyasi iradə: güc mərkəzləri vahid coğrafi məkanda...**

Bu gün artıq geopolitikada coğrafi cəhətlər şərti xarakter daşıyır - dünyanın şərqi, qərbi yox, mərkəzi və kənar - ətrafı mövcuddur. Mürəkkəb qlobal kataklizmlərin mövcud olduğu dönəm və şəraitdə fərqli maraqlara sahib olan, hətta bir-biri ilə geosiyasi qarşıdurma vəziyyətindəki müxtəlif güc mərkəzlərinin maraqlarını vahid coğrafi məkanda uzlaşdırmaq siyasi iradə tələb edir ki, Azərbaycan buna milli mənafelərə və beynəlxalq hüquq normalarına əsaslanan praqmatik, çoxvektorlu xarici siyasət kursu həyata keçirməklə nail olub.

**Sülh naminə müharibə: konfrontasiyadan inteqrasiyaya**

Sülh naminə müharibənin çağdaş geopolitikanın zəruri şərti - strateji oyun qaydalarından biri olduğunu təsdiqləyən ölkəmiz bölgədəki geosiyasi mənzərəni ədavətdən ədalətə, yəni işğal faktından qaynaqlanan hərbi-strateji qarşıdurmadan ədalətli nizama doğru dəyişməklə regionda bütün tərəflərin maraqlarının təmin oluna biləcəyi beynəlxalq dialoq və əməkdaşlıq mühiti yaratmış oldu.

Bu günlərdə istər Münxen Təhlükəsizlik Konfransı, istərsə də Vaşinqtonda Sülh Şurasının ilk iclasında uzun müddət müharibə və münaqişə zonası kimi qeyri-müəyyənlik vəziyyətində olan Cənubi Qafqazın parlaq perspektivlərə malik regiona - geosiyasi cazibə mərkəzinə çevrilməsi və konfrontasiyadan inteqrasiya mərhələsinə transformasiya olunmasının xüsusi vurğulanması bu reallığın təsdiqidir.

**Müharibə cəsarət, barış isə iradə tələb edir**

Müharibə cəsarət, barış isə iradə tələb edir. Ötən il avqust ayının 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp tərəfindən Birgə Bəyannamənin imzalanması ölkəmizin prinsipal mövqeyinin nəticəsi və növbəti diplomatik nailiyyətidir. Bu, sülh prosesinin irəliyə aparılması baxımından böyük dəyərə malik olmaqla postmüharibə dövründə regionda yeni tarixi dönəmin başlanmasını şərtləndirib.

**Sülh quruculuğu: konstruktiv siyasət, unikal model**

Ölkəmizin regional miqyaslı, qlobal xarakterli təşəbbüsləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. İkiqütblü dünya nizamının sıradan çıxmasından sonra, yəni ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlindən bugünədək Cənubi Qafqazda de-fakto müharibə vəziyyəti hökm sürüb ki, Azərbaycanın ilk dəfə olaraq regionda qeyri-müharibə şəraitini təmin etməsi tarixi önəmə malikdir.

Digər tərəfdən, ölkəmiz hazırda müxtəlif münaqişəli tərəflər arasında etibarlı diplomatik körpü rolunda barışdırıcı missiya həyata keçirir.

Bütün bunlar geosiyasi kataklizmlərə hazırlıqlı və perspektivli ölkə Azərbaycanın yeni dünya düzəninə keçid prosesinin institusional əsaslarından olan mühüm bir platformada - Sülh Şurasında təsisçi dövlət kimi iştirak etməsini şərtləndirən çox mühüm faktorlar olmaqla bərabər, sülh quruculuğunun beynəlxalq səviyyədə unikal təcrübə və konstruktiv model kimi təqdir olunduğunu göstərir.

# İsveçrənin səfirinə məktub...

## Milli QHT Forumu bu ölkəni ədalətli olmağa çağırır




Ermənistan 30 ilə yaxın müddət ərzindəki işğal siyasətində azərbaycanlılara qarşı çoxsaylı cinayətlər törədib. Hərbi və müharibə cinayətlərinin bəşəriyyətə qarşı yönəlməsinə baxmayaraq, beynəlxalq birlik ermənilərin cinayətlərinə qarşı susqunluq nümayiş etdirib. Halbuki Azərbaycan bu cinayətlər barədə beynəlxaq ictimaiyyəti daim məlumatlandırıb. Dünya birliyi Ermənistanın işğalçılıq siyasəti ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrası üçün heç bir addım atmadı, həmin sənədlər 27 il kağız üzərində qaldı. Belə olan halda, dövlətimiz BMT Nizamnaməsinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdi. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı erməni işğalından azad etdi. 2023-cü ilin sentyabrında isə Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində erməni separatizmi məhv edildi. Eyni zamanda, separatçı rejimin rəhbərliyində olmuş ermənilər, torpaqlarımızın işğalında iştirak edən yüksək rütbəli hərbçilər həbs olunaraq ədalət mühakiməsinə çıxarıldılar. Məhkəmə tərəfindən onlara hökm oxunub.

**İsveçrə parlamentində qondarma “Sülh Forumu”**

Lakin xaricdəki müəyyən ermənipərəst dairələr, erməni lobbisi ədalət mühakiməsini beynəlxalq ictimaiyyətə yanlış təqdim etməyə çalışırlar. Onlar müxtəlif vasitələrlə ölkəmizə təzyiqlər göstərməyə cəhd edir. Bəzi ölkələrdə keçmiş Qarabağ münaqişəsi, qondarma rejimlə bağlı hansısa uydurma tədbirlər keçirilir, “bəyanatlar” verilir, “qətnamələr” qəbul olunur. Belə ölkələrdən biri də İsveçrə Konfederasiyasıdır. Bu ölkənin parlamentində “Sülh Forumu” adı altında ortaya atılan qondarma tədbir də buna sübutdur. Onların yanlış addımları isə Azərbaycan cəmiyyətində ciddi etirazlarla qarşılanır.

Məsələ ilə bağlı Azərbaycan Milli QHT Forumu İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Tomas Ştəliyə (Thomas Stahli) açıq məktub ünvanlayıb. Məktubda bildirilir ki, biz Azərbaycan vətəndaş cəmiyyəti təsisatları olaraq, İsveçrə Konfederasiyasında sistemli şəkildə anti-Azərbaycan narrativinin formalaşdırılması cəhdlərini müşahidə edirik. İsveçrə parlamentinin hansısa “Sülh Forumu” adı altında ortaya atdığı bu narrativlər Ermənistanda revanşizmin alovlandırılmasına, Azərbaycanla Ermənistan arasında sülh prosesinə zərbə vurmağa xidmət edir. Azərbaycana qarşı nifrət üzərində qurulan iftira kampaniyası regionda sülh və etimad quruculuğunu zədələməyə, separatizmin yenidən təbliğinə yönəlib.

Səfirin diqqətinə çatdırılıb ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə təxribatçı fəaliyyət, tarixin arxivinə göndərilmiş ritorika və terminologiyadan istifadə İsveçrə Konfederasiyasında adi hal almaqdadır. Bəzi İsveçrə parlamentarilərinin son vaxtlar Qarabağ məsələsini “bağlanmış” hesab etmədiyini tez-tez dilə gətirmələri, Erik Fontobelin və digərlərinin İrəvanda revanşistlərin “ofisləri”ndə görüşlər keçirmələri anlaşılmır. Qərargahı İsveçrədə yerləşən “Beynəlxalq Xristian Həmrəyliyi” təşkilatı isə Qarabağ məsələsini dini müstəvidə qələmə verməyə çalışır, Azərbaycana böhtan atır.

**Qərəzli və irqçi yanaşma yolverilməzdir**

“Biz bundan əvvəl də sizə üz tutaraq bildirmişdik ki, belə təşəbbüslər xüsusilə də İsveçrə kimi beynəlxalq hüquqa hörmət bəslədiyini iddia edən bir ölkənin parlamentində irəli sürüləndə, qəbul ediləndə və ya İsveçrə cəmiyyətinin bir hissəsi olan kilsə tərəfindən təşviq ediləndə, İsveçrə ərazisində keçiriləndə obyektivlik və bitərəflik prinsipinə zidd olaraq ikili standartların bariz nümunəsinə çevrilir. XXI əsrdə Avropanın mərkəzində məsələlərə etnik və dini təəssübkeşlik prizmasından yanaşılması qəbuledilməzdir. Xüsusilə regiondan kənar dairələrin məsələlərə birtərəfli, qərəzli və irqçi yanaşması yolverilməzdir. Biz bu cür yersiz müdaxilələri bir daha qətiyyətlə pisləyir, onları Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesinə zərbə hesab edirik”,-deyə məktubda vurğulanır. Diplomata xatırladılıb ki, İsveçrənin Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) 4 min nəfərə yaxın azərbaycanlı itkinin taleyini aydınlaşdırmaq əvəzinə, ölkəmizin suverenliyi, ərazi bütövlüyü əleyhinə addımlar atıb, o cümlədən vaxtilə Xankəndidə icazəsiz ofis açmışdı. BQXK özünün humanitar təşkilat olduğunu iddia etsə də, əslində, qəbuledilməz siyasi fəaliyyətlə məşğul olub. BQXK-nın mandatına zidd olan bu təlimatların mənbəyi haradır?

Milli QHT Forumu bəyan edib ki, biz BQXK-nın Azərbaycanın etibarından sui-istifadə edərək emblemi altında olan yük və təcili tibbi yardım avtomobilləri ilə qaçaqmalçılıqla məşğul olmasını, bu xüsusda həmin nəqliyyat vasitələrində aşkarlanan benzin, siqaret, mobil telefon qutularını da unutmamışıq. “Humanitar yardım” adı altında Azərbaycanın suveren ərazilərində qanunsuz ticarət dövriyyəsinin aparılmasına, fırıldaqçılığa niyə göz yumulub?

“İsveçrənin Azərbaycandakı səfirliyi Emin Hüseynov adlı birini aylarla inzibati binasında gizlətməklə, İsveçrə Xarici İşlər Nazirliyinin nümayəndəsi Didye Burkhalterin müşayiəti ilə qadın paltarında ölkədən qaçırmaqla hansı məqsəd güdüb? Emin Hüseynovun bu gün Azərbaycan dövlətinə qarşı çirkin iftira kampaniyasında İsveçrə dövlətinin rolu nədir? Bizim suallarımız çoxdur”,-deyən Milli QHT Forumu səfirlə görüşməyə hazır olduğunu diqqətə çatdırıb.

*Nardar BAYRAMLI*

# Dil siyasəti yeni mərhələdə

**Dilimizin saflığının qorunması ilə bağlı növbəti tədbir Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada baş tutub. “Medianın dili elmi müzakirə müstəvisində” adlı konfransın əsas məqsədi mediada dil normalarına riayət olunması məsələlərini, eləcə də bu sahədə mövcud problemləri və onların aradan qaldırılması yollarını elmi müstəvidə geniş müzakirə etmək olub. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tədbirin Prezident İlham Əliyevin Akademiyanın 80 illik yubiley yığıncağındakı çıxışında və yerli televiziya kanallarına müsahibəsində Azərbaycan dili ilə bağlı irəli sürdüyü vəzifələrin və qarşıya qoyulan tələblərin elmi müstəvidə müzakirəsinə həsr olunduğunu bildirib. Qeyd edib ki, dövlətimizin başçısının bu istiqamətdə çıxışları, səsləndirdiyi fikirlər müstəqil Azərbaycan dövlətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə, milli-mənəvi birliyin gücləndirilməsinə və Azərbaycan dilinin qorunub zənginləşdirilməsinə yönəlib.**

## Dövlətin dil siyasətində ardıcıllıq

Bu gün Azərbaycan dili müstəqil respublikamızın rəsmi dövlət dili statusuna malikdir. Dilimizin bugünkü inkişaf səviyyəsinə çatmasına və yüksək status qazanmasınadək isə uzun yol keçilib, bir sıra ciddi maneələr dəf edilib. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində xalqımızın tarixin müxtəlif dönəmlərində yaşadığı taleyə diqqət çəkib. Nə demək olar, qismətimizə ağır tale düşüb. Təzada baxın ki, biz həm əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, həm də əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Xalqımız qədim zamanlarda, eləcə də Rusiya və fars imperiyaları dövrlərində çətin sınaqlarla üzləşib. Təxminən 70 il davam edən sovet rejimi də müstəmləkəçiliyin başqa bir forması idi. Bu rejimin sərt ideoloji buxovları hələ də yaddaşlardan çıxmayıb. Təbii ki, müstəmləkə quruluşları xalqımızın milli-mənəvi dəyərlər sisteminə, o cümlədən də dilimizə təsirsiz ötüşməyib. Bununla belə, biz dilimizi yaşatmağa nail olmuşuq. Müstəqillik dövründə hər sahədə uğurlar qazandığımız kimi, zamanında dilimizə olan yad təsirləri də azaldırıq.

Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Eyni zamanda, biz qürur duyuruq ki, Azərbaycan dili müstəqil respublikamızın rəsmi dövlət dili statusuna malikdir. Dilimizin belə yüksək status qazanmasınadək isə uzun yol qət edilib. Konfransda Azərbaycanda ardıcıl dil siyasətinin həyata keçirildiyinə diqqət çəkilib. Müzakirələrdə vurğu edildiyi kimi, respublikamızda dil siyasətinin əsası böyük siyasətçi, azərbaycanlı olması ilə hər zaman qürur duyan Heydər Əliyev tərəfindən qoyulub. Ötən əsrin 70-ci illərin ortalarından başlayaraq keçmiş SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndi. Buna baxmayaraq, o dövrdə respublikamıza rəhbərlik edən Heydər Əliyev ana dili məsələsində öz mövqeyini hər zaman çox qətiyyətlə qorumağa müvəffəq oub. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyev 73-cü maddənin aşağıdakı redaksiyada verilməsi təklifini irəli sürüb: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.”

Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dövlət quruculuğu strategiyasının tərkib hissəsi olan dil siyasətinin nəticəsidir ki, ötən əsrin 70-ci illərində Azərbaycan dilinin tarixi intensiv şəkildə öyrənilib, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılıb. Ali məktəblər üçün yazılmış dörd cildlik “Müasir Azərbaycan dili” dərsliyi 1974-cü ildə məhz Heydər Əliyevin təşəbbüsü ilə milli dilçilik elminin inkişafına töhfə kimi qiymətləndirilərək respublikanın Dövlət mükafatına layiq görülüb.

Sonrakı mərhələdə Heydər Əliyev Azərbaycan dili uğrunda mücadiləsini 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə respublikamızda ikinci dəfə hakimiyyətə gəldikdən sonra davam etdirib. Müstəqil Azərbaycanın Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif müzakirələr aparılırdı. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapıb.

Ana dilimizi qorumaq üçün mühüm addımlar atan Ulu Öndərin siyasi xətti Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısı qloballaşma şəraitində dilimizin yad təsirlərdən qorunması, saflığının təmin edilməsini hədəfləyən bir sıra sənədlər imzalayıb. Prezident İlham Əliyevin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” 2012-ci il 23 may tarixli, “Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında” 2012-ci il 29 may tarixli, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2013-cü il 9 aprel tarixli, “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli sərəncamları, “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 1 noyabr tarixli fərmanı, həmçinin “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradıb. Konfransda bildirilib ki, dövlətimizin başçısının AMEA-nın 80 illik yubileyindəki çıxışı, eləcə də cari ilin yanvar ayında yerli televiziya kanallarına verdiyi müsahibələrdə Azərbaycan dilinin qorunması ilə bağlı səsləndirdiyi fikirlər bu sahədə dövlət siyasətinin yeni mərhələyə qədəm qoyduğunu göstərir.

## Dilin saflığının qorunması ən aktual məsələlərdən biri kimi

Qloballaşma şəraitdə hər bir dövlət, hər bir xalq öz dilini qorumaq qayğısına qalmalıdır. Dilə dəyişməz bir varlıq kimi yanaşmaq doğru olmazdı. Nəzərə almalıyıq ki, dil canlı orqanizmdir və müəyyən təsirlərə məruz qala bilər. Hər dövr xüsusilə də milli dillər üçün yeni çağırışlar yaradır. Məlumdur ki, hazırda internetin inkişafı və digər amillərlə əlaqədar dünyada sürətli qloballaşma prosesi gedir. Bunun yaxşı tərəfləri ilə yanaşı, pis cəhətləri də var. Qloballaşmanın meydana çıxartdığı çağırışlardan biri də milli dillərin qorunması ilə bağlıdır. Reallıq həqiqətən çox kədərlidir. Verilən məlumatlara görə, ötən hər gün ölü dillərin siyahısı genişlənir və milli dillər üçün təhdidlər daha da artır. Etiraf edək ki, təhdidlər Azərbaycan dili üçün də yox deyil və bu, bir sıra amillərdən qaynaqlanır. Prezident İlham Əliyev Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında dilimizin saflığının qorunması ilə bağlı növbəti dəfə narahatlığını bildirib və elm adamlarına, geniş ictimaiyyətə mühüm çağırışlar edib. “On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dilinin qorunması ilə bağlı öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Söhbət ondan gedir ki, bir tərəfdən qloballaşmanın təsiri nəticəsində dilimizə təhdidlər yaranır, digər tərəfdən isə müxtəlif çevrələrdə ünsiyyət zamanı dilimizə yad kəlmələrdən, ümumişlək olmayan sözlərdən istifadə olunur, nitq prosesində qramatik qaydalar məhəl qoyulmur. Təəssüf doğuran haldır ki, bu kimi hallara hətta mətbuat səhifələrində, reklam lövhələrində və digər yazışmalarda da rast gəlinir. Yeri gəlmişkən, bir qədər bundan əvvəl bəhs olunan mövzuda Yeni Azərbaycan TV-nin efirində də geniş müzakirələr aparılıb. Həmin müzakirələrdə studiya qonaqları dilin norma və qaydalarının pozulmasının yolverilməz olduğu barədə öz dəyərləndirmələrini ortaya qoyublar. Belə müzakirələr genişləndirilməlidir. Ümumiyyətlə, dilin saflığının qorunmasında akademik dairələrin və geniş ictimaiyyətin üzərinə böyük məsuliyyət düşür. Dilin daşıyıcısı xalqdır. Buna görə də cəmiyyət bu məsələyə həssas yanaşma ortaya qoymasa, dilimizin qorunması ilə bağlı arzulanan nəticələrin əldə edilməsi mümkün deyil. İlk növbədə ana dilini mükəmməl bilməsi, övladlarına bu dildə yaxşı təhsil verməsi hər bir azərbaycanlının mənəvi məsuliyyətidir. Gənclərin xarici dil biliklərinə yiyələnmələri nə qədər yaxşıdırsa, bu, heç bir halda ana dilinin arxa plana keçirilməsi hesabına edilməməlidir. İctimai yerlərdə, dövlət müəssisələrində dövlət dilinin lazımi səviyyədə işlənilməsi təmin olunmalıdır.




## Orfoqrafiya ilə orfoepiyanı necə ayırmalı?

Konfransda diqqət çəkilən daha bir vacib məsələ zərurət olmadığı halda dilə ocnəbi sözlərin daxil edilməsi ilə bağlıdır. Azərbaycan dilinin lüğət tərkibi kifayət qədər zəngindir və istənilən fikri bu dildə sərbəst şəkildə ifadə etmək mümkündür. Təəssüf ki, bəzi şəxslər zərurət olmadığı halda hansısa bir anlayışı ocnəbi sözlərlə ifadə etməyi üstünlük kimi dəyərləndirirlər. Belələrinin nəyə dəyər vermələri onların öz işidir. Ancaq söhbət dildən gedirsə, bu artıq şəxsi məsələ sayıla bilməz.

“Azərbaycanda dillə bağlı ən ciddi problemlərdən biri orfoqrafiya ilə orfoepiyanı ayıra bilməməkdir”. Bu fikri konfransda Bakı Dövlət Universitetinin (BDU) Televiziya və radio jurnalistikası kafedrasının professoru, Mətbuat Şurası Dil Komissiyasının üzvü, professor Qulu Məhərrəmli ifadə edib. Onun sözlərinə görə, insanlar yazdıqları kimi danışmağa, yaxud da danışdıqları kimi yazmağa vərdiş ediblər. “Azərbaycan dilini korlayan faktlardan biri də televiziya, ya da radioda futbol şərhçilərinin səsləndirdiyi səhv ifadələrdir. Şərhçilər söz sırasını pozaraq dilə xələl gətirirlər. Buna misal olaraq “4:2 hesabı ilə uduzub” cümləsini göstərmək olar. Cümlələrin çox hissəsində mübtəda və xəbərin uzlaşması da pozulur. Bundan əlavə, mediada ən çox yol verilən səhvlərdən biri də “hava şəraiti” ifadəsinin işlədilməsidir. Bu nümunələrin əksər hissəsi məna səhvləridir”, - deyə professor vurğulayıb.

Q.Məhərrəmli efirlərdə yayımlanan reklamlardakı nöqsanlara da toxunub Bununla bağlı ffikirlərini ifadə edən professor deyib: “Reklamlarda Azərbaycan dilinin qayda və normalarına uyğun olmayan saysız nümunələr gətirmək olar. Anlaşılandır ki, reklamların mətnləri öncədən göndərilir və redaktə etmək çətindir. Amma bəzi reklamlardakı fikirlər çox absurd səslənir. Bunlardan biri də şadlıq saraylarının reklamlarıdır”.

Yeri gəlmişkən, konfransda Azərbaycan dilinin orfoepiya lüğətinin 2026-cı ilin sonunadək hazırlanmasının planlaşdırıldığı barədə məlumat verilib. Həmçinin, ölkədə şəxs adları ilə bağlı məsələlərə yenidən baxılması da gündəmdədir. Hazırda Nəsimi adına Dilçilik İnstitutunda bu proseslə bağlı üç yeni şöbə yaradılıb.

## Dil, ilk növbədə, daxili imkanlar hesabına zənginləşməlidir

Konfransda dilimizin saflığının qorunması ilə bağlı ən ciddi mühüm məsələlərdən biri də dilin məhz daxili imkanlar hesabına zənginləşdirilməsidir. Mütəxəssislər də bu qənaəti bölüşürlər. Bəhs olunan mövzuda “Yeni Azərbaycan”a danışan Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmləri doktoru, professor Səyalı Sadıqova vurğulayıb: “Azərbaycan dilində terminologiyanın yaradılması və zənginləşdirilməsi üçün ən əlverişli yol dilin daxili imkanları əsasında terminlərin, termin-söz birləşmələrinin yaradılmasıdır. Ona görə də elm və texnikanın müxtəlif sahələrində meydana gələn yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Elm və texnikanın müxtəlif sahələrində terminlərin mühüm bir hissəsi ümumişlək sözlər əsasında yaranır. Bu zaman ümumişlək sözlər terminoloji funksiya daşıyaraq bütün elm sahələrində elmi anlayışı daha konkret ifadə etməyə xidmət edir. Elmi fikrin ifadəsi dəqiqlik və konkretlik tələb etdiyindən termin də konkret olmalıdır və elmi biliklərin inkişafı, informasiyaların asan yayılması üçün anlayışı dəqiq ifadə edən terminlərə üstünlük verilməlidir. Dilin daxilində işlənərək hər hansı bir ümumişlək anlayışı bildirən leksemin termin səciyyəsi qazanması üçün ümumişləklik çərçivəsindən çıxmalı, müəyyən elmi anlayışı dəqiq, konkret və birmənalı ifadə etməlidir. Xüsusilə, son dövrlərdə bazar iqtisadiyyatına keçidlə bağlı iqtisadi-siyasi terminologiyada yeni olan anlayışların terminlə ifadəsi daha çox ümumişlək dil vahidləri hesabına baş vermişdir. Məsələn, iqtisadiyyatla bağlı “bazar”, “özəl”, “özəlləşdirmə” leksik vahidləri məna genişlənməsi nəticəsində məhsuldar işlənən iqtisadi terminlərə çevrilmişdir. Tarixən bazar sözü alış-veriş üçün müəyyən edilmiş yer mənasını bildirdisə, son dövrlərdə “iqtisadi bazar”, “bazar münasibətləri”, “bazar qiyməti” kimi anlayışları yeni məna kəsb edir.

Azərbaycan dilinin inkişafında dilin daxili imkanları əsas mənbə hesab edilərək ən mürəkkəb fikirlər ifadə olunur. Qarşılıqlı inkişaf əsasında müxtəlif sahələrdə yeni anlayışların adlandırılmasında ümumişlək sözlər hesabına yaranan terminlər üstünlük təşkil edir. Məsələn, “ağıllı” ümumişlək sözdür, lakin son dövrlərdə bu söz terminləşərək - informatikada proqramlara, yaxud aparat vasitələrinə aid işlədildikdə verilən anda gözlənilməyən informasiyanı emal edə bilmək bacarığı mənasında işlənir. Eləcə də bu sözlə bağlı ağıllı bağlanma, ağıllı kart, ağıllı kənd, ağıllı telefon sözləri yaranmışdır”.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan dilinin strateji təhlükəsizlik konsepsiyası: Prezident İlham Əliyevin dil siyasətinə konseptual baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ilin yekunlarına dair verdiyi müsahibədə Azərbaycan dili ilə bağlı səsləndirdiyi fikirlər dil siyasətinin sırf filoloji deyil, strateji-ideoloji mahiyyət daşıdığını aydın şəkildə ortaya qoyur. Bu yanaşma Azərbaycan dilini yalnız ünsiyyət vasitəsi kimi deyil, milli təhlükəsizlik, dövlətçilik və mədəni suverenlik kontekstində dəyərləndirir. Müsahibədə səsləndirilən ideyalar Azərbaycan dilinin qorunması və inkişafının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu bir daha təsdiqləyir.

Prezident İlham Əliyev Azərbaycan dilini dövlətçiliyin ən əsas atributlarından biri, milləti millət edən fundamental amil kimi xarakterizə edir. Onun fikrincə, milli kimliyin qorunması birbaşa dilin qorunması ilə şərtlənir. Dilin deqradasiyası milli şüurun zəifləməsi, nəticə etibarilə isə dövlətçilik prinsiplərinin sarsılması deməkdir. Bu baxımdan dil məsələsi Prezidentin diskursunda ideoloji təhlükəsizlik müstəvisinə keçirilir.

Müsahibədə Azərbaycan xalqının tarixən müxtəlif imperiyaların tərkibində yaşamasına baxmayaraq, ana dilini qoruyub saxlaması “xalqın böyüklüyü” və tarixi müqavimət nümunəsi kimi qiymətləndirilir. Dilin qorunması burada təkcə mədəni davamlılıq deyil, həm də müstəmləkəçiliyə qarşı mənəvi dirəniş simvolu kimi təqdim olunur.

Prezidentin xüsusi diqqət çəkdiyi məsələlərdən biri dilin leksik saflığıdır. O, xarici sözlərin dilə nəzarətsiz şəkildə daxil olmasının zənginləşmə deyil, milli dil strukturunun pozulması kimi dəyərləndirir. Bu cür leksik müdaxilələrin milli kimliyi “damcı-damcı” sarsıtdığı vurğulanır və bu prosesin uzunmüddətli təhlükələr yaratdığı qeyd edilir.

Prezident İlham Əliyev Azərbaycan dilini dünya üzrə 50 milyondan artıq azərbaycanlını birləşdirən əsas ortaq dəyər kimi təqdim edir. Xaricdə yaşayan soydaşların ana dilini yalnız məişət səviyyəsində deyil, mükəmməl şəkildə bilməsi strateji hədəf kimi müəyyənləşdirilir. Bu yanaşma dili milli birliyin əsas instrumentinə çevirir.

Prezident dilin qorunması missiyasında jurnalistlərin və ziyalıların rolunu xüsusi vurğulayır. Efir məkanının dilin ən intensiv istifadə olunduğu sahə olması bu məsuliyyəti daha da artırır. Media dilinin normativliyi cəmiyyətin ümumi dil davranışına birbaşa təsir göstərən amil kimi dəyərləndirilir.

Prezident müasir dünyada qloballaşma və informasiya texnologiyalarının dilə təsirini etiraf edərək bu prosesi mədəni assimilyasiya riski ilə əlaqələndirir. İnternet və sosial şəbəkələr dil mühitində “yumşaq güc” aləti kimi çıxış edir və buna qarşı mübarizə milli mədəni müdafiə strategiyasının tərkib hissəsi kimi təqdim olunur.

Müsahibədə müstəmləkəçilik psixologiyasının fəsadları xüsusi vurğulanır. Ana dilində danışmaqdan utanmaq və ya xarici dildə danışmağı intellektual üstünlük göstəricisi hesab etmək milli natamamlıq kompleksi kimi qiymətləndirilir. Dilin təmizlənməsi burada təkcə leksik deyil, həm də psixoloji və ideoloji azadlıq aktı kimi təqdim olunur.

“Əcdadlarımızın əmanəti” anlayışı ilə dil məsələsi mənəvi borc müstəvisinə keçirilir. Bu yanaşma gənc nəslə ünvanlanan ideoloji mesajdır: müstəqil dövlətin vətəndaşı ana dilini müstəmləkə dövründə yaşayan nəsillərdən daha məsuliyyətlə qorumalıdır.

Prezidentin müsahibədə elm və təhsilə keçid etməsi təsadüfi deyil. Çünki elmin ana dilində inkişafı dilin terminoloji müstəqilliyini təmin edən əsas şərtdir. Elmi dil Azərbaycan dili olmadıqda, terminoloji sahənin xarici dillərin təsiri altına düşəcəyi xüsusi olaraq qeyd edilir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin dil siyasəti Azərbaycan dilini keçmişin mirası olmaqdan daha çox, gələcəyin müstəqillik qarantı kimi təqdim edir. Bu yanaşma dil məsələsini strateji milli təhlükəsizlik səviyyəsinə yüksəldir və hər bir vətəndaşın, xüsusən də ictimai rəyə təsir edən şəxslərin üzərinə ciddi məsuliyyət qoyur. Azərbaycan dili bu konsepsiyada milli müdafiə xətti və mədəni suverenliyin əsas dayağı kimi çıxış edir.

***Xədicə Heydərova,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent AMEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dili tarixi şöbəsinin müdiri***



# Beynəlxalq Valyuta Fondunun yeni qlobal hesabatı



**Beynəlxalq Valyuta Fondu (BVF) "Qlobal İqtisadi İcmal" hesabatını dərc edib. Sənədə əsasən, qlobal iqtisadi artımın 2026-cı ildə 3,3 faiz, 2027-ci ildə isə 3,2 faiz səviyyəsində olacağı proqnozlaşdırılır. Ümumilikdə, 2026-cı il üzrə artım proqnozu 2025-ci ildə müşahidə edilən 3,3 faizlik artıma bərabər olsa da, 2000-2019-cu illər üzrə tarixi orta göstərici olan 3,7 faizdən hələ də aşağıdır. 2026-cı il üzrə proqnozlar ötən proqnozla müqayisədə 0,2 faiz-bənd artırılıb. Qlobal iqtisadi artımın dayanıqlığı ticarət gərginliklərinin səngiməsi, güclü fiskal və monetar dəstək, əlverişli maliyyə mühiti, özəl sektorun çevik reaksiyası və xüsusən inkişaf etməkdə olan ölkələrin siyasət mexanizmlərinin təkmilləşdirilməsi kimi amillərin vəhdətindən qaynaqlanır. Yeni proqnozlara görə, inkişaf etmiş ölkələr qrupunda iqtisadi artımın 2026-cı ildə 1,8 faiz, 2027-ci ildə isə 1,7 faiz səviyyəsində olacağı gözlənilir. Cari il üzrə proqnoz oktyabrla müqayisədə 0,2 faiz-bənd artırılsa da, 2027-ci il üzrə dəyişməz saxlanılıb.**

## İqtisadi artım ABŞ-da 2,4 faiz, Avrozonada 1,3 faiz gözlənilir

ABŞ-da iqtisadi artımın 2026-cı ildə 2,4 faiz, 2027-ci ildə isə 2 faiz olacağı fərz edilir ki, bu da ötən proqnozlarla müqayisədə cari il üzrə 0,3 faiz-bənd yüksək, növbəti il üzrə isə 0,1 faiz-bənd aşağıdır. Avrozona iqtisadiyyatının 2026-cı ildə 1,3 faiz, 2027-ci ildə isə 1,4 faiz artacağı proqnozlaşdırılır. Cari il üzrə proqnoz 0,1 faiz-bənd artırılıb. Yaponiyada iqtisadi artımın 2026-cı ildə 0,7 faiz, 2027-ci ildə isə 0,6 faiz gözlənilir ki, bu da dekabr proqnozu ilə müqayisədə yalnız cari il üzrə 0,1 faiz-bənd yuxarıdır. 2026-cı ildə Çində iqtisadi artımın isə 4,5 faiz, 2027-ci ildə isə 4 faiz olacağı gözlənilir. Dekabr hesabatı ilə müqayisədə proqnozlar cari il üzrə 0,3 faiz-bənd artırılıb, növbəti il üzrə isə 0,2 faiz-bənd azaldılıb. Rusiyada iqtisadi artımın 2025-ci ildə kəskin azalmasından sonra növbəti iki ildə bir qədər yüksələcəyi gözlənilir. 2026-cı il üzrə artım proqnozu 0,8 faiz, 2027-ci il üzrə isə 1 faiz səviyyəsində müəyyən edilib. Türkiyənin iqtisadi artım proqnozu üzrə gözləntilər əsasən sabit qalıb, iqtisadi artımın 2026-cı ildə 4,2 faiz, 2027-ci ildə isə 4,1 faiz gözlənilir.

BVF-nin yeni hesabatında qlobal inflyasiya proqnozunun trayektoriyası dəyişməz qalıb. Dekabr hesabatı ilə müqayisədə inflyasiya tempi üzrə proqnozlar da demək olar ki, dəyişməyib. Tələbin azalması və enerji qiymətlərinin aşağı düşməsi kimi ümumi meyillər üzrə də gözləntilər dəyişməz olaraq qalıb. İnflyasiya proseslərinin növbəti iki ildə də azalmaqda davam edəcəyi gözlənilir. Qlobal inflyasiyanın 2026-cı ildə 3,8 faiz, 2027-ci ildə isə 3,4 faiz olacağı proqnozlaşdırılır.

## Azərbaycanda artım faizləri dayanıqlıdır

Valyuta Fondunun proqnozlarına görə, 2026-cı ildə Azərbaycanda ÜDM 2,1 faiz artmaqla nominal dəyəri 132,467 milyard manat (77,922 milyard dollar) təşkil edəcək. Nominal ÜDM-in 2027-ci ildə dəyəri isə 2,5 faiz təşkil etməklə iqtisadi real artımla 139,742 milyard manat (82,201 milyard dollar), 2028-ci ildə 2,5 faiz real artımla 148,211 milyard manat (87,183 milyard dollar), 2029-cu ildə 2,5 faiz real artımla 157,505 milyard manat (92,65 milyard dollar), 2030-cu ildə 2,5 faiz artımla 167,366 milyard manat (98,451 milyard dollar), 2031-ci ildə isə 2,5 faiz real artımla 177,966 milyard manat (104,686 milyard dollar) səviyyəsində proqnozlaşdırılır.

Nominal qeyri-neft ÜDM-nin 2026-cı ildə 100,7 milyard manat (illik müqayisədə 9,09 faiz artım), 2027-ci ildə 109,02 milyard manat (8,26 faiz artım), 2028-ci ildə 117,394 milyard manat (7,68 faiz artım), 2029-cu ildə 126,363 milyard manat (7,64 faiz artım), 2030-cu ildə 136,017 milyard manat (7,64 faiz artım), 2031-ci ildə isə 127,903 milyard manat (7,64 faiz artım) səviyyəsində gözlənilir.

Fondun Azərbaycan üzrə missiya rəhbəri Anna Bordon 2026-cı il fevralın 4-17 tarixlərində Bakıya səfərinin yekunlarına dair bildirib ki, ölkəmizin maliyyə-fiskal balansı qənaətbəxşdir. BVF-nin proqnozlarına görə, 2026-cı ildə Azərbaycanın strateji valyuta ehtiyatları 85,146 milyard dollarına çatacaq. Mərkəzi Bankın valyuta ehtiyatları 10,688 milyard dollar, Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivləri isə 74,458 milyard ABŞ dolları təşkil edəcək. Fondun gözləntilərinə görə, 2027-ci ildə strateji valyuta ehtiyatları 84,749 milyard dollar, 2028-ci ildə 84,42 milyard dollar, 2029-cu ildə 84,966 milyard dollar, 2030-cu ildə müvafiq olaraq 85,779 milyard dollar, 2031-ci ildə isə 86,46 milyard dollar səviyyəsində gözlənilir.










## Borc azalacaq, inflyasiya sabit qalacaq

Valyuta Fondu 2026-cı ildə Azərbaycanın ümumi dövlət borcunun ÜDM-in 20,7 faizini təşkil etməklə, bu göstəricinin ortamüddətli perspektivdə dayanıqlı səviyyədə qalacağını ehtimal edir. Proqnoza əsasən, 2027-ci ildə ölkənin dövlət borcunun səviyyəsi ÜDM-in 20,9 faizi, 2028-ci ildə 20,7 faizi, 2029-cu ildə 20,4 faizi, 2030-cu ildə 19,9 faizi, 2031-ci ildə isə ÜDM-in 19,6 faizi nisbətində olacaq. Beynəlxalq Valyuta Fondunun Azərbaycanda illik inflyasiyanın 2026-cı ilin sonunda 5 faiz, 2027-ci ildə isə 4 faiz civarında fərz edir. Fondun ekspertləri hesab edir ki, xarici amillərin təsiri altında inflyasiya müvəqqəti olaraq Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun yuxarı həddini ötüb, lakin 2025-ci ilin ikinci yarısında yenidən həmin diapazon çərçivəsinə qayıdıb. İnflyasiyanın azalması gözlənilsə də, artan xarici qeyri-müəyyənliyi və hələ də formalaşmaqda olan pul-kredit siyasətinin transmissiya mexanizmini nəzərə alaraq, inflyasiya risklərinin diqqətli monitorinqi və inflyasiyanın gözlənilməz dəyişmələrinə reaksiya verilməsi vacib olacaq. Banklararası bazarda faiz dərəcələri isə uçot dərəcəsinə yaxın qalır, bu da MB tərəfindən izafi likvidliyin uğurlu idarə olunmasını əks etdirir.

## Mərkəzi Bankın yenilənmiş proqnozları necədir?

Qeyd edək ki, Mərkəzi Bank (MB) da iqtisadi artıma dair yenilənmiş proqnozlarını ötən gün açıqlayıb. 2026-cı ilin fevral proqnozlarına əsasən, cari ildə real iqtisadi artımın ümumi ÜDM üzrə 2,4 faiz, qeyri-neft-qaz sektorunda ÜDM üzrə isə 4 faiz olacağı gözlənilir. Milli Bankın "Pul siyasəti icmalı"nda bildirilir ki, 2026-cı il üzrə yenilənmiş proqnozlar qlobal iqtisadi artımın 2025-ci ildəki artım tempinə bərabər olacaq, qlobal inflyasiya proqnozları ötən hesabatla müqayisədə çox dəyişməyərək tədricən azalma meylini davam etdirəcək.Texnoloji inkişaf və özəl sektorun çevikliyi ticarət siyasətinin yaratdığı təzyiqləri neytrallaşdıraraq qlobal iqtisadiyyatın dayanıqlı artımını qoruyacaq.

Mərkəzi Bankın 2026-cı ilin fevral proqnozlarına əsasən cari ildə real iqtisadi artımın ümumi ÜDM üzrə 2,4 faiz, qeyri-neft-qaz ÜDM üzrə isə 4 faiz olacağı gözlənilir. Proqnozlara əsasən, cari ildə qeyri-neft-qaz sektorunda artımın əsas drayverləri ev təsərrüfatlarının son istehlak xərcləri, mal və xidmətlərin xalis ixracı və əsas fondların ümumi yığımının olacağı fərz edilir. 2027-ci ildə isə qeyri-neft sektorunun artımını 2026-cı ildə olduğu kimi, ev təsərrüfatlarının son istehlak xərcləri, mal və xidmətlərin xalis ixracı və əsas fondların ümumi yığımı şərtləndirəcək.

## Əsas risk mənbəyi xarici ölkələrdə qiymətlərin qalxması ola bilər

Mərkəzi Bankın proqnozlarına əsasən, 2026 və 2027-ci illərdə illik inflyasiyanın hədəf diapazonunda (4±2%) qalacağı və müvafiq olaraq 5,5 faiz və 4 faiz olacağı proqnozlaşdırılır. 2026-cı ilin illik inflyasiya proqnozuna ev təsərrüfatlarının istehlakının 1,22 faiz bənd, kənd təsərrüfatı istehsalçıları qiymətlərinin 2.48 faiz-bənd, ticarət tərəfdaşlarında inflyasiyanın 2,09 faiz-bənd., tənzimlənən qiymətlərin birbaşa təsirinin 0,31 faiz-bənd və digər amillərin 1,12 faiz-bənd artırıcı təsir edəcəyi gözlənilir. Qiymətləndirmələrə görə 2026-cı və 2027-ci illərə də dövlət büdcəsi xərclərinin artımının inflyasiyaya təsirinin neytrala yaxın olacaq. Proqnozların reallaşması bir sıra xarici və daxili amillərdə baş verə biləcəkdəyişikliklərdən asılıdır. Əsas xarici risk mənbəyi tərəfdaş ölkələrdə qiymətlərin yenidən qalxmasıdır. Bu riskin reallaşmasını geosiyasi gərginliyin yüksək qalması, qlobal fraqmentasiya və tariflərlə ticarət müharibələri şəraitində qlobal əmtəə və maliyyə bazarlarında dalğalanmalar şərtləndirə bilər. Qlobal iqlim dəyişiklikləri məhsuldarlığa və qlobal ərzaq istehsalına təsir edə bilər. İnflyasiyanı artıra biləcək başlıca daxili risk isə təklif tərəfdən yerli xərc amillərinin aktivləşməsi ola bilər.

***E.CƏFƏRLİ***

# Azərbaycan və Türkiyə yeni fəaliyyət planı hazırlayır

Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin artırılması, iki ölkənin iş adamları arasında əlaqələrin koordinasiyası və birgə layihələrdə təşviqinin stimullaşdırılması istiqamətində öz səylərini artırmaq niyyətindədir. ATİB-in İdarə Heyətinin sədri Mürsəl Rüstəmovun sözlərinə görə, qurum bu sahədə öz dəstəyini vermək üçün biznes assosiasiyaları, sahibkarlar və müxtəlif qurumlarla birgə təşviqedici addımlar atır.  Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün isə bildirib ki, iki qardaş ölkə arasında iqtisadi təmasların artması qarşılıqlı ticarət dövriyyəsinin də böyüməsini təmin etməkdədir. Hazırda ticarət dövriyyəsinin həcmi 8 milyard dollar təşkil edir. Əmtəə dövriyyənin artırılması və 15 milyard dollara çatdırılması əsas strateji hədəfdir. Növbəti mərhələdə isə əsas hədəf Azərbaycanla Azad Ticarət Sazişinin imzalanması və ticarət münasibətlərinin tam liberallaşdırılmasıdır. Bu məqsədlərə çatmaq üçün 10 maddəlik, ümumilikdə 210 bənddən ibarət fəaliyyət planı hazırlanıb.

## Rəqəmsallaşma və texnologiya sahəsində yeni platforma

BİR MİLLƏT, İKİ DÖVLƏTİN İŞ ADAMLARI BİRLİYİ
ATİB
AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TÜRKİYE BUSINESS ASSOCIATION

2024-cü ilin iyun ayında "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" qüvvəyə minib və sənədə əsasən, iki qardaş ölkə arasında qarşılıqlı ticarətin və xarici investisiyaların həcminin artırılması, birgə iqtisadi layihələrin icrasında təşəbbüskarlığın daha da gücləndiriməsi nəzərdə tutulur. Saziş, həmçinin, Türkiyə şirkətlərinin azad ərazilərdə investisiya güzəştlərindən və stimullaşdırıcı iqtisadi alətlərdən istifadəsinə də geniş zəmin yaradır. Bu baxımdam türk sərmayəçilərinin fəallığını təşviq edən digər prefersial (güzəşt) xarakterli digər sənədlərin də hazırlanması nəzərdə tutulur.

Türkiyə və Azərbaycan münasibətləri təkcə enerji, neft, təbii qaz, infrastruktur yatırımları (tikinti sektoru) və nəqliyyat sahələri ilə məhdudlaşmır, yeni sahələrdə, o cümlədən texnoloji istiqamətlərdə və rəqəmsallaşmada birgə əməkdaşlıq imkanları dəyərləndirilir və platforma qurulur. İki ölkənin iş adamları və investorları rəqəmsallaşma və texnologiya sahəsində yeni layihələrin icrası üçün həm hökumətlərarası qruplar, həm də biznes icmaları vasitəsilə təkliflər də hazırlayaraq həyata keçirmək niyyətindədir.

## "Sistem Global"ın fəaliyyəti süni intellekt sektoruna töhfə verəcək

Türk İnformasiya Texnologiyaları Sənayeçiləri Assosiasiyasının (TÜBİSAD) İdarə Heyətinin sədri Mehmet Ali Tombalak Türkiyə və Azərbaycan texnologiya sektorunda rəqabət qabiliyyətini artırmaq üçün birgə ekosistem formalaşdırmalı və miqyas üstünlüyü yaratmalı olduğunu bildirib. Hazırda Türkiyədə informasiya və kommunikasiya texnologiyaları sektorunun ümumi həcmi 33 milyard dollar təşkil edir və TÜBİSAD ölkə bazarının 95 faizini təmsil edir. Məqsəd Azərbaycanla birgə əməkdaşlıq çərçivəsində bu həcmi ikiqat artırmaqdır. Türkiyə təkcə öz bazarı ilə deyil, Türk dövlətləri ilə birlikdə 161 milyonluq əhaliyə xidmət potensialına malikdir.

Türkiyənin nüfuzlu rəqəmsal şirkətlərindən biri "Sistem Global"ın direktoru Yuliya Çimen bildirib ki,  yeni əməkdaşlıq platformalarının formalaşdırılmasına dəstək göstərəcəyik. Qeyd edib ki, şirkət müştəriləri ilə birlikdə qlobal miqyasda inkişaf edərək həm öz fəaliyyət marşrutunu beynəlxalq istiqamətə yönəldib, həm də qloballaşmaq istəyən şirkətlər üçün yol göstərən tərəfdaşa çevrilib. Rəqəmsallaşma dövründə məsləhət xidmətlərini texnologiya ilə birləşdirərək inteqrasiya olunmuş texnologiya ekosisteminə çevrilən şirkət Bakıda ofisini açmaqla Azərbaycanın süni texnologiyalar ekosisteminin imkanlarını artırmaqdır.

**Türkiyə və Azərbaycan münasibətləri təkcə enerji, neft, təbii qaz, infrastruktur yatırımları (tikinti sektoru) və nəqliyyat sahələri ilə məhdudlaşmır, yeni sahələrdə, o cümlədən texnoloji istiqamətlərdə və rəqəmsallaşmada birgə əməkdaşlıq imkanları dəyərləndirilir və platforma qurulur. İki ölkənin iş adamları və investorları rəqəmsallaşma və texnologiya sahəsində yeni layihələrin icrası üçün həm hökumətlərarası qruplar, həm də biznes icmaları vasitəsilə təkliflər də hazırlayaraq həyata keçirmək niyyətindədir**

## 5 illik hədəf: İnvestisiyaları 30 milyard dollara yüksəltmək...

Hazırda Türkiyənin Azərbaycana yatırdığı investisiyaların həcmi 16 milyard dollar təşkil edir. Azərbaycan şirkətlərinin Türkiyəyə yatırdığı investisiyaların həcmi isə 20 milyard dollara bərabərdir. Hazırda Türkiyədə 2 minə yaxın Azərbaycan şirkəti çalışır ki, onların bu ölkəyə yönəltdiyi investisiyalar tikinti, nəqliyyat, enerji, neft-kimya, sənaye və digər sahələri əhatə edir. Türkiyənin isə Azərbaycanda isə 4 mindən çox şirkəti fəaliyyət göstərir ki, onların ölkəmizin iqtisadiyyatına yatırdığı sərmayələr maliyyə, bank, sığorta, rabitə, nəqliyyat, infrastruktur, sənaye, enerji, ticarət, kənd təsərrüfatı, turizm, xidmət və digər sahələrdə cəmləşib.

Yaxın 5 ildə qarşılıqlı sərmayə qoyuluşlarının 2 dəfə artırılması, təkcə Türkiyə şirkətlərinin Azərbaycanda yatırdığı investisiyaların həcminin 30 milyard dollara çatdırılması gözlənilir. Yeni investisiyaların əsas sahələri azad ərazilərdəki aqrar-sənaye, turizm, "yaşıl enerji", mədənçıxarma və yüngül sənaye sektorları olacaq. Eləcə də, tərəflər müasir nəqliyyat-tranzit imkanlarını, regional və qlobal layihələri, o cümlədən Orta Dəhlizin logistik potensialını dəyərləndirərək  qarşılıqlı infrastruktur quruculuğunda da faydalı əməkdaşlığı genişləndirir. Bakı-Tbilisi-Qars polad magistralının davamı kimi nəzərdə tutulan Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi üzrə işlər sürətlə davam etdirilir. Zəngəzur dəhlizi ilə birləşəcək bu layihə beynəlxalq daşımalar üçün tranzit imkanlarını genişləndirməklə Türkiyə və Azərbaycanın birgə əmtəə mübadilələrinin də artmasına mühüm töhfə verəcək.

***E.CƏFƏRLİ***

# Dil yaşayırsa, xalq yaşayır!

## Beynəlxalq Ana Dili Günüdür

**Dil hər bir xalqın varlığının təməlidir. O, sadəcə ünsiyyət vasitəsi deyil, həm də bir xalqın yaddaşı, ruhu və kimliyidir. Tarixin sınaqlarından keçən xalqları ayaqda saxlayan ən böyük güc onların dili olub. Çünki dil duyğularımızın ifadəsi, düşüncələrimizin forması, mədəniyyətimizin daşıyıcısıdır. Tarix boyu müxtəlif imperiyalar işğal etdikləri xalqları zəiflətmək üçün ilk növbədə onların dilinə zərbə vurublar. Dili əlindən alınan xalq zamanla milli ruhunu da itirir. Milli ruh isə yalnız bayraq və torpaqla deyil, eyni zamanda dillə yaşayır. Bu baxımdan ana dilini qorumaq hər bir vətəndaşın borcudur. Dil yalnız dövlət qurumlarının deyil, ailənin, məktəbin, medianın, ədəbiyyatın da məsuliyyət sahəsidir. Evdə uşaqlarla ana dilində danışmaq, ədəbi dili qorumaq, yad sözlərin həddindən artıq istifadəsindən çəkinmək - bütün bunlar dili yaşadan amillərdir.**

### 2400 dil yox olmaq təhlükəsindədir

Hazırda dünyada 6500-ə yaxın müxtəlif xalqlara mənsub dillər var ki, bunlardan sadəcə 5 faizi fəal istifadə edilir. Çin, ispan, ingilis, ərəb, hind dilləri ilk beşlikdə öz yerlərini qoruyub saxlayırlar. Hesablamalara görə hazırda 2400 dil yox olmaq təhlükəsi ilə qarşı-qarşıyadır.




Dünyada ən çox insanın danışdığı dil Çin dilidir. İkinci yerdə hindi, üçüncü yerdə isə ispan dilidir. Dördüncü və beşinci yerləri müvafiq olaraq ingilis və ərəb dilləri tutur.

### Dünya dilləri haqqında maraqlı faktlar

Dünyada mövcud olan dillər haqqında maraqlı faktlar var. Məsələn, eston dilində ismin 14 halı var. Kambocada kximer əlifbası 76 hərfdən ibarətdir. Vyetnamda əsasən sedanq dilindən istifadə olunur. Bu dildə 50 sait var. Fransa ilə İspaniya arasındakı ərazilərdə yaşayan basklar yaxın ölkələrin dillərinə bənzəməyən və ümumiyyətlə, heç bir hind-Avropa dil ailəsinə aid olmayan bask dilində danışırlar.

Çin yazısında isə heç bir durğu işarəsi yoxdur. Abxaz dili cəmi iki saitə və 60 samitə malikdir. İndoneziya dilində sözün təkrarı cəm bildirir. Məsələn, "babi" donuz deməkdir, "babi-babi" isə donuzlar mənasını verir.

İspan dili dünyada ən çox danışılan dillərdən biridir və ingilis dilindən sonra ikinci ən vacib dildir. Planetdə demək olar ki, yarım milyard insan ispan dilində danışır, bu dil 21 ölkədə rəsmi dildir, həmçinin BMT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatların rəsmi dilidir. Həmçinin, ispan dilində sual və nida cümlələrində durğu işarələri təkcə cümlənin sonunda deyil, həm də cümlənin başında başı aşağı qoyulur!

Bir vaxtlar çox oxşar olan xorvat və serb dilləri eyni dil sayılırdı. Lakin xorvatlar latın, serblər isə kiril əlifbası ilə yazırlar. İngiltərədə fransız dili hələ 6 əsr əvvəl rəsmi dil kimi tanınırdı. İllinoys ştatının qanunları danışıqda ingilis dilindən istifadəni qadağan edir. Bu ştatda rəsmi dil amerikan dili hesab olunur.

Papua Yeni Qvineya ərazisində 700-ə yaxın dil danışılır. Çex dilində isə yalnız samitlərdən ibarət sözlər var. Hazırlıqsız insan üçün bu sözləri tələffüz etmək olduqca çətindir.

Yeri gəlmişkən, bu gün Ümumdünya Ana Dili Günü kimi qəbul edilir. Bu günün qeyd edilməsi ideyası Banqladeşin təşəbbüsü olub. Belə ki, 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsi UNESCO-nun Baş Konfransında 1999-cu ildə təsdiq edilib və 2000-ci ildən bütün dünyada qeyd olunur.

*Yeganə BAYRAMOVA*

**Qış fəslinin son ayı xalq təqviminə görə, Boz ay hesab olunur, fevralın 21-dən martın 21-nə qədər davam edir. Bu dövr kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününədək - Novruza qədər davam edir və hərəsi bir həftə çəkməklə dörd çilləyə bölünür. El-oba arasında bu müddət boz çillə, ala çillə, alaçalpo, yazağzı, ağlar-gülər ayı adları ilə də tanınır.**



# Hər aydan bir gün alan Boz ay...

## Novruza gedən yolun başlanğıcı

### Niyə Boz ay?

"Boz" sözü rəng çalarından daha çox təbiətin vəziyyətini ifadə edir. Qar artıq əriməyə başlayır, torpaq hələ tam yaşıllaşmayıb, səma tez-tez tutulur, hava gah günəşli, gah küləkli, gah da yağışlı olur. Hər şey sanki boz çalara bürünür. Təbiət nə qışdır, nə də tam yaz - aralıq bir mərhələdir.

Rəvayət edirlər ki, qədim zamanlarda insanlar ayı, günləri hesablamaqda çətinlik çəkiblər, günü günə, ayı aya qarışdırıblar. Belə çaşqınlıq insanları bu qənaətə gətirir ki, ili aylara, ayları isə günlərə bölsünlər. İlə 12 ay, hər aya isə 32 gün verirlər. Ancaq bölgü vaxtı Boz aya cəmi 14 gün düşür. Tarazlıq olsun deyə hər aydan bir gün götürüb Boz ayın günlərinə əlavə edirlər. Yenə də düzgün bölgü alınmır: hər ayın 31 günü, Boz ayın isə 25 günü olur. Onda yenidən aylara müraciət edilir ki, hərəniz bir gün də Boz aya verin.



Ayların yarısı razılaşır, yarısı isə razılaşmır. Nəhayət, bir ay bir gün, digəri iki, fevral isə Boz aya üç gününü verir. Beləliklə, Boz ay olur 31 gün. Ancaq öz günlərini ilin müxtəlif fəsillərindən aldığı üçün onlar hava baxımından bir-birinə oxşamır.

Boz ayın bu cür qurulması onun buludlu, yağışlı, küləkli, isti, soyuq - bir sözlə, dəyişkən olması ilə bağlıdır. Xalq bu aya öz münasibətini "Boz ay bozara-bozara keçər" şəklində ifadə edir. Bunun həm müstəqim, həm də məcazi mənası var. Bəlli olduğu üzrə, "boz" dilimizdə bir sıra anlamlarla yanaşı, həmçinin rəngi, xasiyyəti, sərtliyi, kobudluğu bildirir. Ona görə də bu deyim misal çəkiləndə daha çox onun sərtliyi nəzərdə tutulur.

### Cəmiyyətdə bərabərliyi tarazlamaq...

Folklorşünasların araşdırmalarında Novruza qədər keçirilən bayram və mərasimlərdə məhsul bolluğu diləyi başlıca cəhət sayılır. Ulu əcdadlarımızda belə bir əqidə var idi ki, nə qədər bolluğu arzulasan, onu çağırsan, o, sənə daha tez yaxın düşər. Keçmiş türk bayramlarının başqa bir qayəsi isə cəmiyyətdə bərabərliyi tarazlamaq, yoxsullara, əlsiz-ayaqsızlara, sürüsünü yel, sel aparanlara, ocağına qəza üz verənlərə kömək etmək istəyi ilə bağlı idi. Bu, əsasən Novruzaqədərki nəğmələrdə də öz əksini daha qabarıq şəkildə tapırdı.

### Novruzgülü Boz ay girməmiş açmır

Məlumdur ki, bahar müjdəçisi novruzgülü də Novruz bayramı ərəfəsində açır. Novruzgülü Kiçik çillənin sonu, Boz ayın əvvəlində açır. Maraqlıdır ki, qış mülayim, qarsız-boransız keçsə də, bu gül Boz ay girməmiş heç vaxt açmır. Ən sərt keçən qışda isə Boz ayın əvvəlində cənub tərəfdə qarın altından zərif çiçəklər boylanır.

Qeyd edək ki, bu il yaz fəslinin Azərbaycana daxil olması martın 20-si saat 18:45:53-ə təsadüf edəcək. Bu zaman gecə ilə gündüz bərabərləşəcək və Günəş düz şərqdə doğub, qərbdə batacaq. Yaz fəslinin uzunluğu 92 gün 17 saat 38 dəqiqə 28 saniyə olacaq.

*Yeganə BAYRAMOVA*

# Yaxın Şərqdə güc siyasəti:

## İsrail-İran qarşıdurması regionu hara aparır?

Yaxın Şərqdə son illərin ən mürəkkəb və təhlükəli geosiyasi mərhələsi İsrail-İran qarşıdurması ilə yeni səviyyəyə yüksəlib. 2023-cü ilin 7 oktyabrında İsrailə qarşı həyata keçirilmiş hücumdan sonra başlanan regional eskalasiya artıq lokal toqquşmalar miqyasını aşaraq dövlətlərarası güc nümayişinə çevrilib. Analitiklər bu prosesi "uzanan regional müharibə zənciri" adlandırırlar.

### Hərbi əməliyyatların başlanğıcı və İsrailin strategiyası

2025-ci ilin 13 iyununda İsrail Müdafiə Qüvvələri (IDF) İrana qarşı genişmiqyaslı hava əməliyyatına start verdi. "Yüksələn şir" adlandırılan əməliyyat İsrailin baş naziri Benyamin Netanyahu, müdafiə naziri Yoav Qallant və baş qərargah rəisi, general-leytenant Herzi Halevi tərəfindən koordinasiya olunurdu. İsrail rəhbərliyi əməliyyatın aparılmasında əsas məqsədin İranın nüvə proqramını və regional hərbi təsir imkanlarını zəiflətmək olduğunu bildirdi. İlk 96 saat ərzində İsrail Hərbi Hava Qüvvələri yüzlərlə hədəfə zərbə endirdi. Zərbələr əsasən İranın strateji obyektlərinə yönəlmişdi: Natanz və Fordo nüvə zənginləşdirmə kompleksləri, İsfahan nüvə tədqiqat mərkəzi, radar və hava hücumundan müdafiə sistemləri, SEPAH-a məxsus hərbi bazalar. Məlumatlara görə, əməliyyatın ilk mərhələsində İranın hərbi strukturlarında və nüvə proqramında iştirak edən təxminən 80-100 nəfər yüksək rütbəli şəxs zərərsizləşdirildi. İsrail tərəfi hava məkanında faktiki üstünlük əldə etdiyini və İran HHM sistemlərinin bir hissəsinin sıradan çıxarıldığını açıqladı.

### İranın cavabı və raket balansı

İran Silahlı Qüvvələri və İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) cavab olaraq yüzlərlə pilotsuz aparat və ballistik raket buraxdı. Raketlərin böyük hissəsi İsrailin çoxpilləli müdafiə sistemi - "Dəmir günbəz", "David's Sling" və "Arrow-3" tərəfindən məhv edilsə də, zərbələrin bir qismi hədəfə çatdı. Nəticədə, Hayfa şəhərində neft emalı infrastrukturu zədələndi, "Gezer" elektrik stansiyası fəaliyyətini müvəqqəti dayandırdı, Tel-Əvivdə Müdafiə Nazirliyi ətrafında dağıntılar qeydə alındı, Ben Qurion beynəlxalq hava limanı yaxınlığına raket düşməsi hava nəqliyyatını qısa müddətə iflic etdi. Bu hadisələr İsrail ərazisinin ilk dəfə belə intensiv raket hücumuna məruz qalması kimi qiymətləndirildi və ölkə daxilində təhlükəsizlik doktrinasının yenidən müzakirəsinə səbəb oldu.

Münaqişənin ən kritik mərhələsi 22 iyun 2026-cı ildə baş verdi. ABŞ Hərbi Hava Qüvvələrinə məxsus strateji bombardmançılar İranın yeraltı obyektlərinə qarşı GBU-57 "Massive Ordnance Penetrator" bunkerdağıdan bombalar tətbiq etdi. Çəkisi təxminən 13,6 ton olan




bu bombaların dağıdıcı gücü dərin yeraltı obyektləri məhv etməyə hesablanıb. ABŞ Prezidenti Donald Tramp hücumdan sonra İranın nüvə imkanlarının ciddi zərbə aldığını açıqladı. Bununla Vaşinqton faktiki olaraq münaqişəyə birbaşa müdaxilə etdi. İran isə cavab olaraq ABŞ-ın Qətərdə yerləşən Əl-Udeyd aviabazasına raket zərbəsi endirdi. Bazada ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) əsas infrastrukturu yerləşir, orada minlərlə amerikalı hərbçi xidmət edir. Tehran hücumdan əvvəl xəbərdarlıq etməklə genişmiqyaslı eskalasiyanın qarşısını almağa çalışdığını nümayiş etdirdi.

### Atəşkəs və "iki qalib" paradoksu

24 iyun 2026-cı ildə tərəflər atəşkəs elan etdilər. İsrailin baş naziri Netanyahu əməliyyatın strateji məqsədlərinə çatdığını bildirdi. İran Prezidenti Məsud Pezeşkian isə ölkə daxilində keçirilən mitinqlərdə İranın qalib gəldiyini bəyan etdi. Bu vəziyyət müasir müharibələrin paradoksunu bir daha üzə çıxardı: hər iki tərəf qələbəsini elan edir, lakin region daha təhlükəli və qeyri-sabit vəziyyətə düşür. Münaqişə yalnız iki ölkə ilə məhdudlaşmır. İranın Yəməndə husilər, İraqda silahlı şiə qrupları, Livanda isə "Hizbullah" vasitəsilə təsir imkanları regionu hələ də geniş müharibə riski altında saxlayır. Digər tərəfdən ABŞ, İsrail və bəzi körfəz ölkələri arasında təhlükəsizlik əməkdaşlığı güclənir.

Enerji bazarları da dərhal reaksiya verdi - Hörmüz boğazı ətrafında risklərin artması səbəbindən neft qiymətləri qısa müddətdə 10-15 faiz yüksəldi. Dünyada dəniz yolu ilə daşınan neftin təxminən beşdə biri məhz bu marşrutdan keçir. Ekspertlərin fikrincə, region klassik müharibə mərhələsinə deyil, uzunmüddətli gərginlik dövrünə daxil olur. İsrail İranın nüvə imkanlarını tam məhv edə bilmədi, İran isə İsrailin hərbi üstünlüyünü sarsıda bilmədi. Nəticədə, qarşılıqlı çəkindirmə balansı formalaşdı. Bu gün Yaxın Şərqdə səma sakit görünsə də, strateji bombardmançılar bazalarda hazır vəziyyətdədir, raket sistemləri isə döyüş rejimindən çıxarılmayıb. Çünki regionda hamı anlayır - növbəti böhran artıq zaman məsələsidir.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Hərb, ya sülh?

## ABŞ Silahlı Qüvvələri regionda

Yaxın Şərq yenidən böyük güclərin hərbi-siyasi hesablaşma meydanına çevrilməkdədir. Son günlər ABŞ-ın regionda hərbi mövcudluğunu sürətlə artırması beynəlxalq ekspert dairələrində ciddi müzakirələrə səbəb olub. Vaşinqton rəsmi açıqlamalarda vəziyyəti "profilaktik təhlükəsizlik tədbiri" kimi təqdim etsə də, hadisələrin fonu göstərir ki, əsas səbəb İran ətrafında formalaşan gərginlikdir.

Qərb mənbələrinin məlumatına görə, ABŞ Silahlı Qüvvələri son günlər ərzində Yaxın Şərq regionuna onlarla qırıcı təyyarə göndərib. Bu, son illərin ən sürətli hərbi yerləşdirmələrindən biri hesab olunur. Regiona göndərilən aviasiya texnikası arasında beşinci nəsil gizli texnologiyalı F-35 Lightning II, hava üstünlüyü üçün nəzərdə tutulmuş F-22 Raptor, çoxməqsədli taktiki F-16 Fighting Falcon qırıcıları yer alır. Bu təyyarələrin bir hissəsinin Fars körfəzi ölkələrində yerləşən ABŞ hərbi bazalarına, digər hissəsinin isə müttəfiq dövlətlərin aerodromlarına yönəldildiyi bildirilir. ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) regionda əməliyyatlara rəhbərlik edən əsas struktur olaraq fəaliyyət göstərir.

ABŞ-ın hərbi gücünü artırdığı vaxtda diplomatik proses də davam edir. Cenevrədə aparılan məsləhətləşmələr zamanı İranın nüvə proqramı ətrafında yeni kompromis variantlar müzakirə olunub. Məlumatlara görə, Tehran zənginləşdirilmiş uranın müəyyən hissəsini ölkə xaricinə - ehtimal olunan variant kimi Rusiya və ya hansısa üçüncü ölkəyə ötürmək imkanını nəzərdən keçirir. Bunun müqabilində İran Qərbin sanksiya təzyiqinin yumşaldılmasını və danışıqların davam etdirilməsini istəyir. İran rəsmiləri isə rəsmi mövqedə qalaraq bildirirlər ki, ölkə nüvə silahı əldə etməyə çalışmır. İranın ali rəhbəri Ayətullah Əli Xameneinin dini fətvasına istinad edilərək nüvə silahının qadağan olunduğu vurğulanır. Lakin Tehran elmi və sənaye məqsədli nüvə texnologiyasından imtina etməyəcəyini də açıq şəkildə bəyan edir.

ABŞ prezidentinin administrasiyası hesab edir ki, hərbi mövcudluğun artırılması danışıqlar masasında əlavə təzyiq rıçaqı yaradır. Bu taktika beynəlxalq münasibətlərdə "məcburedici diplomatiya" modeli adlanır, yəni siyasi razılaşmanı sürətləndirmək üçün hərbi üstünlük nümayiş etdirilir. Vaşinqton İranı iki seçim qarşısında qoymağa çalışır: ya nüvə proqramı üzrə kompromis, ya da artan hərbi risk.

Regiondakı vəziyyətə İsrailin mövqeyi də ciddi təsir göstərir. İsrail rəhbərliyi uzun müddətdir İranın nüvə proqramını milli təhlükəsizlik üçün əsas təhdid hesab edir və bu məsələdə ABŞ-la sıx koordinasiya aparır. Analitiklər mümkün hərbi ssenarinin ABŞ və İsrail arasında birgə planlaşdırıldığını istisna etmirlər. Yaxın Şərqdə hərbi qüvvələrin cəmləşdirilməsi tarixən böhranların başlanğıcı olub. Hazırda regionda onlarla ABŞ hərbi bazası, minlərlə hərbçi və strateji enerji marşrutları yerləşir. Xüsusilə Hörmüz boğazı ətrafında hər hansı insident qlobal enerji bazarına dərhal təsir göstərə bilər.

Politoloqların fikrincə, vəziyyət paradoksaldır: tərəflər müharibə istəmir, lakin hər biri müharibəyə hazırlaşır. Bu gün Yaxın Şərqdə baş verənlər bir daha göstərir ki, müasir geosiyasətdə diplomatiya artıq təkbaşına işləmək gücündə deyil - o, çox vaxt hərbi gücün kölgəsində fəaliyyət göstərir. ABŞ qırıcılarının region səmasında görünməsi yalnız taktiki qərar deyil, həm də Vaşinqtonun mesajıdır: danışıqlar davam edir, amma alternativ ssenari də masa üzərində qalır.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# ŞƏNBƏ ÜÇÜN NƏZM







*Nəriman Həsənzadə*

Elə dayanırsan, elə baxırsan,
Elə bil qarşında quru bir
daşam.
İpək saçlarını bir vaxt oxşayan
Elə bil hardasa mən
olmamışam.

Səni dostlarımla, tanışlarımla
Mən tanış edərdim nə vaxtsa
bir-bir.
İndi özgələri yad ehtiramla
Deyirlər: “Tanış ol...” Nə
qəribədir?!

Yuxuda görərdin nə vaxtsa hər
dəm,
Yolumu gözlərdin yollardan
uzaq.
Mən sənin yuxundan çıxıb
gəlmişəm,
Bu da bir yuxudur - gəl tanış
olaq.

Qoluna girərdim... bu,
yadındadır,
Gedərdik... yolumuz, arzumuz
şərik.
Qolum qollarının lap
yanındadır,
Toxunsa biz indi üzr istəyirik.

Harada oldumsa səhər, ya
axşam,
Aradın sən məni, gördün sən
məni.
İndi gözlərinin qabağındayam,
Harada durum ki, görəsən
məni?

***

Bir yol ayrıcına bənzəyir
həyat,
Yaramaz həyatın üstündə
əsmək.
Cəsarət istəyir, bir də ehtiyat,
Nə ləngimək olar, nə də
tələsmək.

Ehtiyat elədim orda ki, bir vaxt
Cəsarət hər şeyə, məncə,
dəyərdi.
Cəsarət göstərdim orda ki,
ancaq
Adi bir ehtiyat bəs eləyərdi.

Bu dünya qəribə bir
əyləncədir,
Dünya sərt, mən bəzən
uşaqxasiyyət.
Yaşadım, bilmədim bu dünya
nədir,
Bilmədim, dünyada nədir
səadət.

Kədərim dünyanın vecinə
deyil,
Sevincim necə bəs, düşürmü
yada?
Bəlkə dünya üçün bu - heç nə
deyil,
Nə qədər sevinc var, qəm var
dünyada.

Dünya sərgisində göründüm,
yetər,
Həqiqət dedim mən “yalan
dünya”ya.
Dünyanı əyləncə hesab
edənlər
Əylənib baxsınlar bir an
dünyaya.

***

Sən məni bu qədər
gözlətməmişdin,
Belə qoymamışdın gözümü
yolda.
Bu qədər özünü
gizlətməmişdin,
Gizlənpaç oynayan vaxtımızda
da.

Haraya getsən də, dönmüşdün
yenə,
Qayıdıb gəlmişdin mənsiz
darıxıb.
Bu dəfə bilmirəm nə olub
sənə,
Gedibsən, qayıtmaq yadından
çıxıb.

Qalıb evimizdə palın-paltarın,
Tələsik gedəndə kimə
deyibsən?
Qapının ağzında başmaq
tayların,
Yolda ayağına bəs nə
geyibsən?

Solub pianonun üstündə güllər,
Təzə pərdələri yandırıbdır
gün.
Sənin bişirdiyin o mürəbbələr
İçilib qurtardı - hardasan özün?

Bu axşam qəribə bir hiss
keçirdim,
Nə tez ömür ötdü, yaş əlli
oldu.
Sənin ad gününü sənsiz
keçirdim,
Şəkilin yeganə təsəlli oldu.

Şirin söhbətindən olmayıb
doyan,

Çağır qonşuları, doyunca
gülək.

“Mənsiz gördünüzmü, dözmür
Nəriman...”
Sənə qurban olum, sən
görmədin tək.

***

Sən getdin, həsrətin qaldı
canımda,
Sonradan mat qaldım, düzü, bir
şeyə.
Qeyri-adi idin mənim yanımda,
Getdin, elə bil ki, adiləşməyə.

Sənə yalvarırdım burda
bayaqdan,
Eşikdə qış idi, otaqda bahar.
Sən də gedib evdə
yalvaracaqsan -
Gecikdiyin üçün bağışlasınlar.

Səni bağışlamaq?.. Dünyaya
bir bax,
O qəlbi, o ruhu gərək duyasan.
Axı səndən gərək üzr
istəyələr,
Lazımdırsa, sən gərək
bağışlayasan.

Bir qəlbin ən əziz
şahzadəsiydin,
Qulluq gözləyirdim hüzurunda
mən.
Gedib evinizdə sən ona yəqin
Bir qulluq göstərib çay
süzəcəksən.

Getdin, ürəyimi salıb tufana,
Sədaqət həyatda başqa rəng
deyil.
Mənim sevincimi apardın ona,
Bəlkə də ona heç bu, gərək
deyil.

***

Bu dünya nərdivandı -
Qalxanda mehribandı,
Enəndə nə yamandı...

Görüşdük pillələrdə,
Yolun yarısında biz.
O qalxırdı bu dəmdə,
Mən enirdim xəbərsiz.

Onu arzularına
Qaldırırdı nərdivan,
Məni xatirələrə
Endirirdi bu zaman.

Birimiz günçıxana,
Birimiz günbatana...
Qalxa bilməzdim daha -
Nə o güc, nə o taqət.

O da enə bilməzdi -
Haqlı, haqsız vermişdi
Öz hökmünü təbiət.

Gərək ya düşməyəydi
Bu görüş heç araya.
Ya o əvvəl gələydi,
Ya mən sonra dünyaya...

# Smart mütaliəçi

Məhz “mütaliəçi”. Adını “smart oxucu” qoysaq, texniki avadanlıq kimi də başa düşülə bilər. Hərçənd, müasir oxucu özü, get-gedə ən yeni texnoloji avadanlıqlarla, məsələn, robotlarla birləşmək üzrədir. Daha doğrusu, birgə fəaliyyət, qarşılıqlı öyrənmə/öyrətmə qaçılmazdır.

“Hələ ona çox var” deyənlər “ümid edir”lər ki, hər şey dağılacaq və yerində heç nə qurulmayacaq. Lakin bizim nə istəyib-istəməməyimizdən asılı olmayaraq “Gələcəklər gələcəklər!” (İki sözün arasına “toz boyda” vergül atsaq, məna tamamilə dəyişir...)



*Məqsəd Nur*

Bu sonuncu söz birləşməsini 1996-97-ci illərdə, bir qəzetin gənclər üçün nəzərdə tutulmuş daimi səhifəsinin adı kimi - konseptual layihə olaraq təklif etmişdik. Uğurla da istifadə edildi. Yəni gələcək mütləq gələcək, onu dayandırmaq mümkün deyil. Həm də bu gəlişin sürəti həndəsi silsilə ilə artacaq...

İndi sual budur: gələcəyin smart mütaliəçisini oyunlardan, min cür vərdiş və əyləncələrdən ayırıb Kitaba, Mətnə yönəldə bilsək, necə olar, ümumiyyətlə, bu, mümkündürmü?

Bəlkə, onda şagird müəllimə silah-sursatla cavab qaytarmaz, özünü oyun, əyləncə aqressiyasından çox smart kitabda tapar? İş orasındadır ki, smart kitab da özü ilə yeni problemlər gətirə bilər...

Smart mütaliə platformaları hələlik daha çox kitab, musiqi, kino üçlüyünü özündə birləşdirməklə, daha doğrusu, onların alyansından ibarət təşkil edilir. Diqqət etsək, görərik ki, bu üçlükdən ən interaktivi, “ətli-canlısı”, söz-söhbətlisi məhz kitab-mütaliə hissəsidir. Orada kitablar iki formada - səsli və mətn şəklində təqdim olunur.

Son dövrlər apardığım müşahidələrə görə, mətn (həmçinin oradakı interaktivlik) səsli kitabdan bir qədər üstündür. Bəlkə də, yaxın gələcəkdə kitab oxuyan oxuduğu/dinlədiyi mətni film kimi də izləyə biləcək?

Əgər Sİ (Süni İntellekt) özü yaxın gələcəkdə ssenari yaza, film quraşdıra, musiqi bəstələyə biləcəksə, nə üçün oxucuya da oxuduğu kitaba əsasən serial təklif etməsin?

İndi audiokitablar daha ucuz başa gəlir - nə aktyora, nə də xüsusi, bahalı səsyazma studiyalarına və qurğulara ehtiyac qalmır.

Təsəvvür edin, övladına “Çırtan”ı nağıl edən ana smartfona “Nağılı cizgi filmi et!” əmri verir və çarpayının qarşısındakı ağ divarda nağılın multiplikasiyası canlanır. Yaxud, uşaq qorxu romanlarının aludəçisidir və əsərdə yazılanları “ekranlaşdırmaq” istəyir... Belə çıxır ki, smart kitab həm də təhdid vəd edir?..

Yeri gəlmişkən, dünyanın ən nüfuzlu, rəngarəng və aktiv kitab festivallarından biri olan Dublin Kitab Festivalı həm maarifləndirmə, həm də uşaqları ailə ilə birlikdə mütaliəyə (gələcəyə) hazırlama məqsədilə ailə və uşaq proqramları təşkil edir. Bu yanaşma həm böyükləri, həm də uşaqları öyrədir, onları smart dövrün risklərinə birgə hazırlayır.

Smart kitab isə gələcəyə belə hazırlaşa bilənlər üçün, asanlıqla birgə kitab oxumaq, birlikdə yaratmaq, birlikdə əylənmək perspektivləri də vəd edir...

Mən də kitabların içində böyümüşəm. Kənd kitabxanalarının, klub və mədəni icmaların tərəfdarıyam. Amma bu tərəfdarlıq sivilizasiyanın çağırışlarına uyğun gəlməli, hətta ona öz şərtlərini diktə etməlidir.

Kim bilir, bəlkə, kağız kitablar smartı üstələyəcək, yaxud kağız kitablara elə texnologiyalar tətbiq ediləcək ki, gördüklərimizə inana bilməyəcəyik?

Elektron hökumət qaçılmazdırsa, kağız tarixə qovuşursa, elektron/smart kitab da gələcək. Gələcəksə, gələcək...

# “Nar” uşaq hüquqları sahəsində maarifləndirməni gücləndirir

Sərfəli mobil operator Nar-ın dəstəyi ilə həyata keçirilən “Hüquqlarınla parla!” layihəsinin yekun tədbirləri baş tutub. Layihə uşaq hüquqlarının təşviqi, məktəblilərin hüquqi biliklərinin artırılması və onların analitik düşünmə bacarıqlarının inkişaf etdirilməsi məqsədini daşıyır. Təşəbbüs çərçivəsində təşkil edilən fəaliyyətlərdə Bakı və regionlardan olan məktəblilər, o cümlədən həssas kateqoriyadan olan uşaqlar aktiv iştirak ediblər.

Tədbirin ilk günü “Regional İnkişaf” İctimai Birliyinin ofisində ekspertlərin iştirakı ilə keys müzakirələri keçirilib, iştirakçılar real və simulyativ situasiyalar üzrə həll strategiyalarını təqdim ediblər. Təqdimatlardan sonra səsvermə olub və analitik yanaşma, təklif olunan həll strategiyalarının əsaslandırılması, təqdimat bacarıqları və komanda işi meyarları əsasında ekspertlər tərəfindən ən yaxşı 3 komanda müəyyən edilib. Yekun mərasim isə T. İsmayılov adına 6 saylı məktəb-liseyində baş tutub.Tədbirin davamında təlimlərdə yüksək nəticə göstərən məktəblilər, eləcə də həssas kateqoriyadan olan uşaqlar üçün keçirilən keys müsabiqəsində ekspertlərin səsverməsi ilə seçilən qalib komandalar hədiyyə və diplomlarla, iştirak edən məktəblilər isə sertifikatlarla təltif olunub.

Layihə çərçivəsində indiyədək 2000-dən çox məktəbli, o cümlədən həssas kateqoriyadan olan uşaqlar hüquqi maarifləndirmə tədbirlərinə cəlb olunub. Layihənin nəticəsi olaraq, uşaqlar üçün hüquqi maarifləndirməni daha əlçatan etmək məqsədilə xüsusi mobil tətbiqin hazırlanmasına başlanılıb.

Layihə Azərbaycan Respublikasının Milli Məclisi, İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Sosial Xidmətlər Agentliyi, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və “Regional İnkişaf” İctimai Birliyinin əməkdaşlığı ilə icra olunub.




Qeyd edək ki, “Nar” artıq 4 ildir ki, “Regional İnkişaf” İctimai Birliyi ilə tərəfdaşlıq çərçivəsində layihəyə davamlı dəstək göstərir. Mobil operator korporativ sosial məsuliyyət strategiyası çərçivəsində uşaq hüquqlarının qorunması, rəqəmsal savadlılığın artırılması və internet təhlükəsizliyinin təşviqini prioritet istiqamətlərdən biri hesab edir. Şirkət kiberbullinqə qarşı mübarizə, şəxsi məlumatların qorunması və uşaqların təhlükəsiz rəqəmsal mühitdə inkişafına yönəlmiş təşəbbüslərə sistemli və uzunmüddətli yanaşma sərgiləyir. “Hüquqlarınla parla!” layihəsi də bu strategiyanın tərkib hissəsi olaraq ictimai-özəl tərəfdaşlığın effektiv modelini nümayiş etdirir.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən “Nar” son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında “Nar”ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4847**
**Sifariş: 248**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova